MUSA QULİYEV

# ŞAHTAXTİNSKİLƏR TARİXİMİZDƏ VƏ TALEYİMİZDƏ

Naxçıvan – 2010

Elmi redaktor: **İsmayıl Hacıyev**
*AMEA-nın həqiqi üzvü*

Rəyçilər: **Şükür Məmmədov**
***T.e.n., dos.***
**Emin Şıxəliyev**
***T.e.n., dos.***

*Kitabda tariximizdə və taleyimizdə mühüm rol oynamış Şahtaxtinskilərin, onların görkəmli nümayəndələrinin elm, təhsil, mədəniyyət, diplomatiya və dövlət quruculuğu sahələrindəki fəaliyyətlərindən bəhs edilir.*

*Kitabda ilk dəfə olaraq Şahtaxtinskilərin nəsil şəcərəsi də verilir.*

*Musa Quliyev. Şahtaxtinskilər tariximizdə və taleyimizdə. Naxçıvan, "Əcəmi" NPB, 104. səh.*

4700000000
053-2010

© "Əcəmi" 2010.

## ŞAHTAXTİNSKİLƏR MUZEYİNİN YARADILMASI HAQQINDA

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

## SƏRƏNCAMI

Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, parlamentarizmin, dövlət quruculuğunun və hərb sənətinin inkişafında Şahtaxtinskilərin xüsusi yeri və böyük xidmətləri vardır. Bakıxanovlar, Naxçıvanskilər kimi, Şahtaxtinskilərin də tarixi yalnız ayrılıqda götürülmüş bir sülalənin deyil, ölkə həyatının mühüm sahələrinin inkişaf tarixi kimi nəzərdən keçirilməkdədir. Bu məşhur sülalə son iki əsr ərzində Azərbaycan elmi və ictimai-siyasi mühitinə tanınmış dövlət xadimi və diplomat, beynəlxalq Moskva və Qars müqavilələrinin bağlanmasında müstəsna xidmətlər göstərmiş Behbud ağa Əliağa oğlu Şahtaxtinski, görkəmli Azərbaycan publisisti, maarifçi, şərqşünas, dilçi, əlifba islahatçısı, ictimai xadim, 2-ci Dövlət Dumasının deputatı olmuş Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtinski, ziyalı, hərbçi, Çar Rusiyası ordusunun polkovniki olmuş Əbülfət Nəcəfqulu oğlu Şahtaxtinski, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərindən biri, Azərbaycan parlamentinin ilk üzvlərindən olmuş Həmid ağa Xəlil oğlu Şahtaxtinski, alimlik dərəcəsi almış (1875-ci il) ziyalı, jurnalist və ictimai xadim İsa Sultan Nəcəfqulu oğlu Şahtaxtinski kimi şəxsiyyətlər bəxş etmişdir.

Fəaliyyət göstərdikləri bütün dövrlərdə Şahtaxtinskilər fədakarlıqlar göstərmiş, Azərbaycanın xoşbəxt gələcəyi uğrunda mərd mübarizlər olmuşlar. Şahtaxtinskilərin Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, parlamentarizmin, dövlət quruculuğunun və hərb sənətinin inkişafında müstəsna xidmətlərini, həyat və fəaliyyətləri ilə bağlı

tədqiqat işlərinin aparılması vacibliyini, onların keçdikləri şərəfli yolun vətənpərvərlik tərbiyəsində böyük təsir gücünə malik olmasını əsas götürərək **qərara alıram:**

1. Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilər muzeyi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri:** **Vasif TALIBOV**

***Naxçıvan şəhəri, 9 fevral, 2010-cu il.***

## ŞAHTAXTİNSKİLƏR: NAXÇIVANIN MƏŞHUR SOYLARINDAN BİRİ

"Şahtaxtinskilər: tariximizdə və taleyimizdə" kitabının müəllifi Musa Quliyevin imzası elmi ictimaiyyətə yaxşı tanışdır. O, artıq 30 ilə yaxındır ki, Naxçıvanın görkəmli yetirmələri, onların qəribə taleləri, bizə məlum olmayan fəaliyyətləri haqqında məlumatlar verir. Bu məlumatları tədqiqatçı böyük səbr və maraqla arxivlərdən, şəxsi adamlardan toplayır, ümumiləşdirir, təhlil edir və yazılara, məqalələrə, oçerklərə çevirir. Musa müəllimin məqalələrində kimlər yoxdur: Əliyevlər, Kəngərlilər, Naxçıvanskilər, Təhmasiblər, Bektaşilər haqqında, bəhs olunan Şahtaxtinskilər və onlarla məşhur soylar və onların tanınmış nümayəndələri. Respublikanın dövri mətbuatında Musa Quliyev bu istiqamətdə 500-dən artıq məqalə çap etdirmişdir.

M.Quliyevin tədqiqatlarında Şahtaxtinskilərin öz yeri və mövqeyi vardır. Çünki Şahtaxtinskilərin Azərbaycan elmində, təhsilində, dövlət quruculuğunda, diplomatik işdə, mətbuat tarixində - bir sözlə, tariximizdə və taleyimizdə çox böyük xidmətləri olmuşdur. Bunları yaxşı bilən Musa Quliyev böyük həvəs və məhəbbətlə Şahtaxtinskilərin fəaliyyətlərini, onların çətin, kəşməkəşli, lakin şərəfli həyatlarını öyrənir və geniş ictimaiyyətə təqdim edir.

Şahtaxtinskilər, onların ayrı-ayrı nümayəndələri haqqında İ.Həbibbəyli, İ.Hacıyev, V.Quliyev, Ş.Vəliyev, M.Əliyev, Ə.Əliyev, F.İbrahimzadə, Ş.Məmmədov və başqa tədqiqatçılar araşdırmalar aparmış, kitab, monoqrafiya və məqalələr çap etdirmişlər. Tədqiqatçı Musa Quliyevin təqdim olunan bu kitabı onun daha çox arxiv materiallarına istinad olunaraq müxtəlif illərdə çap etdirdiyi məqalələri özündə birləşdirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şahtaxtinskilər muzeyinin yaradılması" haqqında 9 fevral

2010-cu il tarixli Sərəncamı tariximizdə böyük xidmətləri olan Şahtaxtinskilərin fəaliyyətlərinə dövlətimizin göstərdiyi qayğının ən yaxşı ifadəsidir. İnanırıq ki, Şahtaxtinskilər nəslinin yetirmələrinin fəaliyyətləri hələ bundan sonra da onlarla tədqiqat işinin mövzusuna çevriləcəkdir. Tədqiqatçı Musa Quliyevin bu kitabı Şahtaxtinskilərin tanıdılmasında böyük rol oynayacaqdır.

İsmayıl HACIYEV
*Akademik*

## TARİXİMİZDƏ ŞAHTAXTİNSKİLƏR NƏSLİ - ÖYRƏNİLƏSİ VƏ TƏDQİQ OLUNASI MÖVZULAR HƏLƏ ÇOXDUR

Azərbaycan tarixinin maraqlı və mühüm sahələrindən biri ailə sülalələrinin öyrənilməsidir. Keçən əsrin, yəni XX yüzilliyin 90-cı illərindən başlayaraq Azərbaycanda bu sahədə xeyli işlər görülüb və maraqlı kitablar çap olunub. Ancaq araşdırmalar göstərir ki, hələ elə ailə sülalələri vardır ki, bu gün də öyrənilməyə və araşdırılmağa möhtacdır. Bu ailə sülalələri tariximizlə çox bağlı olduqları üçün öyrənilməsi zəruridir. Belə məşhur sülalələrdən biri də Şahtaxtinskilərdir.

Onu da qeyd edək ki, Naxçıvan xanlığına dair sənədlərdə Şahtaxtinskilər əsasən Cəmşidli, Yurdçulu və Şahtaxtlı, yaxud Qazaxlar tayfası soyadı ilə yazılıb. 1828-ci ildən, yəni Naxçıvan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra isə onlar Şahtaxtinski familiyasını daşıyıblar. Əvvəlki dövrlərə dair sənədlərin az, 1828-ci ildən sonra isə yazılan sənədlərin çox olduğunu, həmçinin axtarışlar zamanı tapılan sənədlərin zənginliyini nəzərdə tutaraq yazılarımızda əsasən Şahtaxtinski familiyasını işlədirik, çünki sonralar bu nəslə aid olmayanlar da Şahtaxtlı imzasını qəbul ediblər. Bu isə qarışıqlıq yaradır. Arxivlərdə sənədləri araşdırarkən çox maraqlı məlumatlara rast gəldik. Başqa ailə sülalələrindən fərqli olaraq Şahtaxtinskilər Azərbaycana hərbiçilər, alimlər, dövlət adamları, diplomatlar, incəsənət xadimləri və həkimlər bəxş edib. Bu insanların, məşhur şəxsiyyətlərin çoxunun həyatı XIX-XX yüzilliyin "tufanlarında" məhv olub, çünki qürurlu və mərd, vətənpərvər, cəsur Şahtaxtinskilər Azərbaycanın ayrılmaz hissəsi Naxçıvanın müstəqilliyi üçün mühüm işlər görüblər və hərb meydanlarında döyüşüblər.

Araşdırmalar göstərir ki, bu qədim nəslə aid sənədlər əsasən İrəvan, Tiflis, Moskva, Sankt-Peterburq, Bakı, Tehran və

İstanbul arxivlərinin fondlarındadır. Məlum səbəblərə görə İrəvan arxivlərinə baxmaq mümkün olmadığından bir çox məsələlərə aydınlıq gətirmək çətinləşir. Digər tərəfdən isə yaranmış tarixləri yaddaşlarına köçürən insanlar da əbədiyyətə qovuşublar. Buna görə də bu sahədə görülən işləri - axtarışları sürətləndirməyi qərara aldıq. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 27 fevral 2006-cı il tarixli sərəncamı ilə görkəmli ictimai xadim və maarifçi Məhəmməd ağa Şahtaxtinskinin anadan olmasının 160 illiyinin qeyd olunması və xatirəsinin əbədiləşdirilməsi ürəyimizcə oldu.

Məhəmməd ağa Şahtaxtinskinin atası Məhəmməd Tağı Sultan dövrünün açıqfikirli və zəngin zadəganlarından biri olub. Arxiv sənədlərinə əsasən məlum olur ki, onun Şahtaxtıda, Yurdçuda, Vərməziyarda, Yamxanada, Xəlillidə (ora Cəmşidli də deyilib), Cəhridə, Orta Anzırda və digər yerlərdə geniş torpaq sahələri olub. Naxçıvan xanlığında da çox mötəbər bir hərbçi, təəssübkeş, xeyirxah bir insan kimi tanınan Məhəmməd Tağı Sultanın atası Hacı İsa Sultan I Kalbalı xanın çox ehtiram bəslədiyi sultan olub. Onu da deyək ki, hələ 1828-ci ildən əvvəl sultan hərbi titulu mahir döyüşçülərə, əsasən süvarilərə verilirdi. Yüz nəfər atlıya rəhbərlik edən sultanın ixtiyarında bir naib və iki vəkil olurdu. 4 belə dəstə iri bir qoşun növünü-polku təşkil edirdi. I Hacı İsa Sultan I Kalbalı xanın oğlanlarından Nəzərəli xanla və Ehsan xanla yaxın dost və qohum olmuşdur. Bu ailədə dünyaya gələn Məhəmməd Tağı Sultan bacarıqlı bir hərbiçi idi.

O, hərbçi olmaqla yanaşı, maarifə, torpağa çox vurğun bir insan olub. Atasının Naxçıvan, İrəvan şəhərlərində çox sayda mülklərinin olmasına baxmayaraq qədim baba yurdu Şahtaxtı kəndində yaşamağı üstün tutub. Və öz övladlarını da bu ruhda böyüdüb. Əldə etdiyimiz sənədlərə əsasən Hacı İsa Sultanın Məhəmmədtağı sultan, Nəcəfqulu sultan, Hüseynqulu sultan, kapitan Zeynalabdın sultan Hacı Vəli ağa,

Cəfərqulu sultan, Məmmədqulu sultan adında övladları olub.

Deyilənlərə görə onun Cahangir və Mahmud ağa adlı oğlanları da olub. Məhəmmədtağı sultanın varisləri Baxşəli ağa, Məhəmməd ağa, Cahangir ağa, Tovuz xanım, Fatma xanım... Məhəmmədtağı Sultan oğlu Məhəmməd ağanın əla təhsil alması üçün var-dövlətini əsirgəməmişdir.

Məhəmməd ağa Şahtaxtinski geniş elmi diapazonlu alim, jurnalist, müəllim və şərqşünas olmuşdur. Həmçinin o, həm də ilk azərbaycanlı poliqlotdur. Ömrünün çox ilini Şərq və Avropa ölkələrində, İranda, İraqda və digər ölkələrdə yaşayan Məhəmməd ağa 1875-ci ildə atasını itirir. Məhəmməd ağa Şahtaxtinski bir sıra məqalələrini "Türkiyədən yeniliklər" başlığı ilə verirdi. Məsələn, onlardan biri türk xalqının xalqlar arasında təmiz dostluğa, sülhə necə həssaslıqla yanaşdığını açıq-aydın göstərir. O, "Türkiyədən yeniliklər" məqaləsində rus şərqşünası Olqa Lebedeva haqqında rəğbətlə söhbət açıb. Qeyd edək ki, Olqa türk, Azərbaycan və tatar dillərini mükəmməl bilirdi. Onu Şərq ölkələrində "Gülnar xanım" - deyə çağırırdılar. Türkiyə hökuməti ona rus yazıçılarının əsərlərini türkcəyə çevirdiyi üçün "Məcidiyyə" ordeni vermişdi. Bu yaxınlarda akademik İsa Həbibbəyli alimin seçilmiş əsərlərini gərgin zəhmətlə hazırlayıb çap etdirib. "Giriş"də verilən maraqlı bir cümlə Məhəmməd ağanın mənsub olduğu soyun qorxmazlığını, hünərliliyini bir daha sübuta yetirir: "Rusiya hökumətinin qəddar Baş naziri Stolıpinin də iştirak etdiyi Duma iclasından birində Məhəmməd ağa Şahtaxtinskinin Varşava nümayəndəsi Dmovskinin nitqini kəsərək söylədiyi "Yalandır! Hətta asiyalı yaponlar və farslar da bizə nisbətən daha azad yaşayırlar" kimi tutarlı cavabı, ciddi etirazı Dövlət Duması üzvlərini lərzəyə salmışdır". Məhəmməd ağa Şahtaxtinski ömrünün son illərini Bakıda təqiblər içində yaşayaraq müəllimlik edirdi. Onun

yaxın qohumları söyləyirlər ki, o, vəfat edəndə onu dəfn etməyə gedənlər o qədər də çox olmayıb. Və yəqin ki, 1937-ci ilədək yaşasaydı, onu da digər Şahtaxtinskilər kimi həbs edəcəkdilər. Bəlkə də Ulu Yaradan belə bir taleyə qıymamışdı, çünki onun əmisi Nəcəfqulu Sultanın oğlu II İsa Sultan kimi görkəmli bir şəxsiyyətin qızı, istedadlı, tanınmış ginekoloq həkim Adilə xanımın başına gətirilənlər bu gün də adamı ağrıdır. Atasının Rusiya imperiyasındakı böyük xidmətlərinə baxmayaraq, o, əksinqilabçı kimi bolşevik Rusiyası tərəfindən həbs edilmişdi. Bu illərdə Məhəmmədtağı Sultanın sağ qalan övladlarını, qızlarını və nəvələrini güllələyir, sürgün edir, ən asanı isə təqib edirdilər. Onları Naxçıvandan və Şahtaxtından köçürürdülər. Məhəmmədtağı Sultanın digər oğlu Baxşəli ağa uzun illər Culfada, Şahtaxtıda, Şərurda və Həştərxanda gömrükdə işləmişdir. Onu 1918-ci ildə iki oğlu ilə birlikdə doğradılar, qalan övladlarını isə 1937-ci ildə təhlükəsizlik idarələrinin zirzəmilərində amansız üsullarla istintaq edirdilər. Bütün bunların hamısının sənədləri durur. Yeri gəlmişkən, o əzablara baxmayaraq, onların böyütdükləri övladları bu gün Azərbaycanın texniki elmlər sahəsində əvəzolunmaz alimləridir. Məhəmmədtağı Sultanın digər oğlu Cahangirin inqilabdan əvvəl Naxçıvanda polis məmuru işlədiyi haqqında arxiv sənədləri var. 1920-ci ildən sonra başqa Şahtaxtinskilər kimi onun da izləri itir. Naxçıvanı erməni daşnaklarından qoruyan Araz-Türk Respublikasının ən fəal üzvlərindən olan Şahtaxtinskilər türk qoşunlarının Naxçıvana gətirilməsində böyük xidmətlər göstəriblər. Şahtaxtı kəndinin Ağalıq meydanında qoşunlara başçılıq edən Xəlil bəyin oturduğu bina indiyədək durur. Qeyd etmək yerinə düşər ki, Məhəmmədəli xan Naxçıvanskinin qızı ilə evlənən Xəlil bəy türk qoşunları Çanaqqalaya dönərkən onu da özü ilə aparıb. Mirzə Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım xatirələrinin birində belə yazır:

"Mirzə Cəlil 1900-cü il iyun ayının 13-də ikinci dəfə evlənərək Məmmədqulu bəy Kəngərlinin bacısı Nazlı xanımı (onun əsl adı Zeynəb xanımdır) almışdır. Nazlı xanım əvvəllər Əliqulu Şahtaxtlının arvadı olmuş və ondan Heydər adlı on yaşlı bir oğlu var imiş". Ancaq Şahtaxtinskilərə aid arxiv sənədlərinə baxanda aşkar olur ki, Mirzə Cəlilin böyütdüyü Heydər ağa mayor Əliqulu ağanın yox, onun qardaşı Heydər ağa Şahtaxtinskinin oğludur. Hacı İsa Sultanın oğul nəvəsi Heydər ağa Hacı Vəli ağa oğlu Şahtaxtinski IX dərəcəli polis məmuru kimi, həm də tərcüməçi qismində Qarsda, Kaqızmanda və Ərzurumda işləmişdir. Təzə ailə qurandan sonra 1889-cu ildə vəfat etmiş, bir müddət sonra doğulan oğluna Nazlı xanım ərinin adını vermişdir. Bu haqda Heydər ağa Şahtaxtinski Tiflisdə yaşadığı illərdə - 24 sentyabr 1916-cı ildə Naxçıvan şəhər məhkəməsinə yazdığı ərizədə bildirmişdir.

Bundan başqa, Heydər ağa Hacı Vəli ağa oğlu Şahtaxtinskinin də arxiv işini əldə etmişik. Çox maraqlıdır ki, Heydər ağa Kəngərli kimi tanınan Heydər ağa Şahtaxtinskinin yazdığına görə, ona qəyyumluğu ata babası Hacı Vəli ağa edib, hər cür köməklik göstərib. Qohumlarının dediklərinə görə, Heydər ağa Almaniya və Moskva universitetlərində təhsil alaraq bacarıqlı hüquqşünas olmuşdur.

Naxçıvan MR Dövlət Arxivində Şahtaxtinskilərin və Kəngərlilərin çar hökuməti tərəfindən mükafatlandırılması ilə bağlı maraqlı sənədlər var. Bu sənədlər Culfa - Uluxanlı dəmiryolunun çəkilməsi ilə bağlı torpaq sənədləridir. Burada adı siyahıda tez-tez çəkilən Əsgər ağa Həsən ağa oğlu Kəngərlinski Məhəmmədtağı Sultanın qızı Pəricahan xanımın həyat yoldaşıdır.

Məhəmməd ağa Şahtaxtinskinin ona xüsusi rəğbəti olub. Təəssüf ki, Əsgər ağanın 20-ci illərdən sonrakı taleyindən ətraflı məlumat əldə edə bilməmişik.

Hacı İsa Sultanın bir oğlunun varislərindən - yəni Mə-

həmməd ağanın qardaş-bacılarından azacıq da olsa söhbət açdıq. Onun digər oğlanları Nəcəfqulu sultanın, Hacı Vəli ağanın, qaraman Zeynalabdın sultanın (arxiv sənədlərində ona aid işlərdə şəxsi işin üzərində "qaraman" yazılıb, içəridə isə kapitan hərbi titulu göstərilib.

Onu da qeyd edək ki, ADR-in 1918-ci ildə hökumət üzvlərindən biri olan Həmid ağa Şahtaxtinski Xəlil ağa oğlu da Hacı İsa Sultanın varislərindəndir. Repressiya illərində onu uzaq Arxangelskdə, çox qorxulu yer olan Solovetsk monastrında məhv etdilər. Həmin monastırda insanlar üzərində dəhşətli təcrübələr aparırdılar...

Bir vaxtlar müstəqil Türkiyə dövlətinin yaradıcısı Mustafa Kamal Atatürkün və Rusiyada bolşevik hakimiyyətinin lideri Vladimir İliç Leninin yaxından tanıdığı Behbud ağa Şahtaxtinskinin tariximizdə xidmətləri də əvəzsizdir. Amma çox təəssüf ki, onu da Tiflisdə qətlə yetirə biliblər. Və qəribə sənədlər tərtibləyib, arxivlərə, mənzilinə qoyublar ki, intihar edib. Belə bir əsas da irəli sürüblər ki, həyat yoldaşı ilə yola getmirmiş. Əlbəttə, bunlar uydurulmuş, DTK tərəfindən qurulmuş bir tələ idi. Çünki Qars müqaviləsinin əsas səbəbkarı Behbud ağanın ağlı və hünəri sonrakı illərdə bolşevik daşnaklara mane ola bilərdi.

Fikrimizcə, ciddi axtarışlar aparılsa, əsl həqiqətləri üzə çıxaracaq.

Bir vaxtlar Tehranda şah saraylarında, sonralar Rusiya və Osmanlı imperiyalarında çox namusla Azərbaycan və onun ayrılmaz hissəsi Naxçıvanın müstəqilliyi amalı ilə yaşayan və dövlət işlərində çalışan Şahtaxtinskilərin fəaliyyəti olduqca maraqlıdır. Onların Qars, Kaqızman, Ərzurum, İğdır və digər yerlərdə dövlət işlərində çalışmaları haqqında olan arxiv sənədlərinin öyrənilməsi tariximiz üçün olduqca faydalıdır.

## TARİXİMİZDƏ VƏ TALEYİMİZDƏ ŞAHTAXTİNSKİLƏR

Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixinin, mədəniyyətinin, ictimai-siyasi fikrinin tərəqqisində bir çox nəsillərin əvəzsiz rolu olub. Belə nəsillərdən biri də Şahtaxtinskilərdir ki, onlar Azərbaycan tarixində öz adlarını ön sırada yazmışlar. Bu məşhur nəsil Azərbaycana görkəmli alimlər, həkimlər, dövlət adamları, diplomatlar, incəsənət xadimləri və eyni zamanda böyük sərkərdələr bəxş etmişdir.

Onların ata-baba yurdu olan Şahtaxtı kəndi çox qədim tarixə malik bir yurd yeridir. Hətta məxəzlərdə Şahtaxtı kəndinin yerində eradan əvvəl III minilliyin sonu, II minilliyin əvvəlində şəhər olduğu göstərilir. Bir az da dərinə getsək, əvvəlki yüzilliklərdə - XIII-XIV əsrlərdə Şahtaxtının sahibləri Şahtaxtinskilər olub. Bu kənd onlara miras kimi nəsildən-nəslə ötürülüb. Onlar hər zaman Şahtaxtı - öz ata-baba yurdları ilə öyünüblər. Bu fakt da fikrimizi təsdiqləyir ki, bir dəfə İrəvan qubernatoruna Şahtaxtinskilərin ağsaqqalı Hacı Vəli ağa çox qürurla deyib: Bizim təzə familiya qəbul etməyə ehtiyacımız yoxdur. Biz 500 ildən artıqdır ki, Şahtaxtılı familiyasını daşıyırıq.

Şahtaxtinskilər Rusiya imperiyasının, Avropanın hansı şəhərlərində, eləcə də dünyanın hansı ölkəsində yaşayıb-yaratsalar da, öz doğma yurdlarını heç vaxt unutmamışdılar və Şahtaxtı kəndi ilə əlaqələri olmuşdur.

XIX və XX əsrdə elm aləmində böyük nailiyyətlər, uğurlar əldə edən alimlərin əksəriyyəti Şahtaxtinskilərdən olub. Amma çox təəssüf ki, onların nəsil şəcərələri az öyrənilib. Ümumiyyətlə, Azərbaycanda şəcərə tarixi demək olar ki, işlənilməyib. Elə bu unutqanlığın nəticəsidir ki, Azərbaycan diplomatiyasında mühüm rol oynamış böyük diplomat

Behbud ağa Şahtaxtinskinin atasının adı da elmi əsərlərdə, ensiklopediyalarda göstərilməmişdir.

Bir neçə ildir biz Şahtaxtinskilərin nəsil şəcərəsini araşdırırıq. Sənədlərdə bu nəslin adı Ağacıq kimi də qeyd olunub. Məsələn, I İsa Sultan Ağacıq, Əli bəy Ağacıq və s. Son illərə qədər Şahtaxtı kəndində onların malikanələri yerləşən əraziyə də "Ağalıq" deyirdilər. Elə indinin özündə də həmin ərazi yaşlılar tərəfindən "Ağalıq" adlandırılır. Çox ehtimal ki, bu söz "Ağacığ"ın təhrif olunmuş variantıdır, çünki 1840-1859-cu illərdə İrəvan bəy komissiyasında onlar ulu babalarının adının Ağa-Cir ağa kimi qeyd etmişlər.

Əlimizdə olan sənədlərə görə I İsa Sultan Şahsultanın oğludur. Və bu gün 200 ildən artıqdır ki, dünyanı heyrətdə qoyan Şahtaxtinskilər I İsa Sultanın törəmələridir. II İsa Sultan Nəcəfqulu Sultan oğlu isə onun nəvəsidir. II İsa Sultanın həyatı və şəxsiyyəti, eləcə də fəaliyyəti nəsillərə bir nümunədir. Onun haqqında ədəbiyyatşünas alim V.Quliyevin "İsa Sultan Şahtaxtinskinin qəribə həyatı" (Bakı, 1999) monoqrafiyasında yazdıqlarını təkrarlamaq istəmirik. Bir onu deməк istəyirik ki, qürbətdə əbədiyyətə gedən bu həmyerlimizin həyatını və fəaliyyətini lazımınca təbliğ edə bilməmişik. O, bütün həyatını imperiya əsarətinə qarşı mübarizəyə həsr edib.

Yeri gəlmişkən onu da deyək ki, Şahtaxtinskilər əsasən Şahtaxtı, Naxçıvan, İrəvan və Tiflisdə yaşayıblar. Bu yerlərdə onların iri torpaq sahələri və mülkləri olub. Naxçıvanın Kəngərlilər yaşayan kəndlərinin bir neçəsində - Cəhridə, Xəlillidə, Yamxanada, Tumbulda, Şahtaxtında və Yurdçuda da onların çox böyük torpaq sahələri var idi. Onlar yüksək təbəqəyə daxil olsalar da, həmişə sadə xalqla birgə olmuşlar. Övladlarını sadə xalqın içərisində böyüdüb tərbiyə etmişdilər və təhsillərinin də qayğısına qalmışdılar. Məsələn, I İsa Sultanın oğlu Məhəmmədtağı Sultan öz oğlu

Məhəmməd ağa Şahtaxtinskini (1846-1931) Moskvada, Almaniyada və Parisdə oxutmuşdu. Məhəmməd ağa Şahtaxtinski ensiklopedik biliyə malik bir alim kimi 8 dildə mükəmməl yazıb-oxumuş, məqalələr yazmışdır. Onun elmi fəaliyyətinə nəzər yetirsək, görərik ki, o, ömrünü Azərbaycan xalqının gələcəyi naminə sərf edib.

Məhəmməd ağanın qardaşı Baxşəli ağa da Peterburq Universitetinin hüquq fakültəsini bitirib Naxçıvana qayıtmışdı. Onun oğlu Hüseyn ağa da Peterburq Universitetinin hüquq fakültəsində təhsil alırdı. Lakin 1918-ci ildə ata və oğul Culfadan Naxçıvana qayıdarkən Nehrəm kəndi yaxınlığındakı "Dərəlik" adlı yerdə irticaçılar tərəfindən vəhşicəsinə qətl olunurlar. Qatillərin dediklərinə görə, Baxşəli ağa yalvarırmış ki, əvvəlcə məni öldürün, sonra oğlumu. Amma qatillər atanın gözləri önündə oğlunu əzabla, işgəncə ilə qətlə yetirirlər. Sonra da Baxşəli ağanı öldürürlər. Onlar həmin yerdə dəfn olunublar. Məzarları yaxınlıqdakı Camaldın kəndindədir.

Yeri gəlmişkən, bu ölüm haqqında müxtəlif versiyalar var. Ancaq 1918-20-ci illərdə baş verən hadisələr düzgün təhlil edilməyincə, yazılanlara inanmaq çətindir. Çünki 1920-ci ildən sonra yazılanların hamısı o dövrün siyasətinə uyğunlaşdırılıb. Guya Araz-Türk Respublikası daxilində gedən feodal çəkişmələri bu qətldə əsas rol oynayıb.

Baxşəli ağanın o biri oğlanları - Nemətulla bəy, Ətaulla bəy və Həbibulla bəy Azərbaycan elmində çox böyük xidmətlər göstərmişlər. Onların üçü də Bəhmən Mirzənin nəvələri olan 3 bacıyla - Zəhra, Ziba və Leyla xanımlarla ailə qurmuşlar. Bu nikahlardan doğulan övladlar da Azərbaycan elminə, mədəniyyətinə, incəsənətinə böyük töhfələr vermişlər. Belə ki, Nemətulla bəy Şahtaxtinski ilə Zəhra xanımın oğlu Toğrul Şahtaxtinski akademikdir. Həbibulla bəy də akademik olub. Övladlarının digərləri də elmin müxtəlif sahələri

üzrə alim idilər. Qızı Elmira xanım isə Azərbaycanın xalq rəssamı olmuşdur.

Ulu babaları İsa Sultan var-dövlətini maarifə, mədəniyyətə əsirgəməyən bir şəxs olduğu kimi, onun varisləri də bu yola sadiq qalmışlar. Bunu onların şəcərə tarixlərindəki faktlar da sübut edir.

I İsa Sultan Şahtaxtı kəndində məktəb, hamam tikdirmişdir. Şahtaxtı kəndindəki hamam son vaxtlara qədər işləyirdi. I İsa Sultanın oğlu Nəcəfqulu bəyin oğlanları II İsa Sultan və Əbülfət ağa da mükəmməl təhsil almış, yaşadıqları dövrün gözəl ziyalıları olmuşlar. II İsa Sultan Şahtaxtinski Azərbaycan xalqı üçün çox böyük xidmətlər göstərib. Onun 43 illik ömür yolunun 16 ili Qars şəhəri ilə bağlı olub. II İsa Sultanın qəflətən vəfatı ilə bağlı o vaxtlar çox populyar olan "Kavkaz" qəzetinin dərc etdiyi nekroloqda yazılıb: "Mərhumun xidməti fəaliyyətinin səciyyəsini vermək qəzet məqaləsinin işi deyil. Ancaq təkcə onu göstərmək kifayətdir ki, İsa Şahtaxtinski bir çox rus ordenlərindən əlavə rütbəyə görə hədiyyəyə - brilyant üzüyə, fars ordeni "Şiri Xurşid"ə, türk ordeni "Məcidiyyəyə" (III dərəcə) layiq görülmüşdü".

Onlar bolşeviklər tərəfindən təqib edilərək məhv olunmuşlar.

1917-ci il oktyabr inqilabından sonra onun 6 qızından sağ qalanlarını incidir və həbs edirdilər. Bizə belə gəlir ki, İsa Sultan Şahtaxtinskinin diplomatik və jurnalistlik fəaliyyəti ciddi tədqiq olunmalıdır. Onun qardaşı Əbülfət Şahtaxtinski Peterburqda Texnoloji İnstitutda, eləcə də Moskvadakı Lazarev adına Şərq Dilləri İnstitutunda təhsil almışdı. Sonralar isə Almaniyanın Heydelberq İnstitutunu Bakalavr üzrə bitirmişdir. Bütün bunları 25 yaşınadək əldə etməsi isə onun fitri-istedada malik bir gənc olmasını göstərən faktdır. O, nəsil soyuna sadiq qalaraq hərbi məktəbə də daxil olmuş, oranı müvəffəqiyyətlə bitirmiş və rus-yapon müharibəsində

polkovnik rütbəsi qazanmışdır. 1913-cü ildə Gürcüstanın Kutaisi şəhərində vəfat etmiş və öz vəsiyyətinə görə doğulduğu Şahtaxtı kəndində babalarının yanında dəfn edilmişdir.

110 ildən çox yaşayan Əli Hacı Məhəmmədhüseyn oğlunun dediyinə görə cənazəni mart ayında Tiflisdən xüsusi zirehli qatar gətirmişdi. Gəncə Şahtaxtı Dəmiryol Vağzalından "Ağacıq" sərdabəsinə qədər top lafetinin üzərində fəxri qarovul əhatəsində gətirilərək torpağa tapşırılmışdı. Əbülfət Şahtaxtinski əmisi oğlu, məşhur alim Məhəmməd ağa Şahtaxtinskinin qızı Balabəyimlə ailə qurmuşdu. Onların oğlanları Nəcəf, Sadıq və Abbas da hərbçi idilər. Çox təəssüf ki, onlar da bolşeviklər tərəfindən təqib edilərək məhv edilmişlər. Burada bir məsələni də oxuculara bildirməyi lazım bilirik. Arxiv sənədləri üzərində işləyərkən Ketevana Mdivani adına tez-tez rast gəlirdim. Ən çox da Şahtaxtı - Maku hərbi dəmiryolu çəkilərkən ixtisara düşən torpaq sahələrinə ödənilən pulun siyahısında Ketevana Mdivani adının qabağında rus dilində (Ona je Qonçabeyim) qeydləri vardı. Amma bunun kim olduğunu dəqiq deyən yox idi. Xatirimdədir, keçən əsrin 80-ci illərində qarxunlu Hacı ağanın qızı Zivər xanım Şahtaxtinskaya deyirdi ki, Əbülfət ağanın birinci xanımı Minqrel knyazının qızı olub. Hətta o, deyirdi ki, ondan nəvələri də var. Amma adlarını unutmuşdu. "Azərbaycan Tarixi Muzeyi" (2004-cü il) toplusunu vərəqləyərkən bir fakta rast gəldik: "Əbülfət ağa Şahtaxtinski və onun şəxsi Quranı". Məqalənin müəllifi İnna Kostinanın yazdığına görə (məqalə ruscadır) Quran fransız dilindədir və üstündəki (Le KORAN) qızılla işlənilib. 1879-cu ildə kitaba Əbülfət ağa Peterburqda öz əli ilə avtoqraf yazıb. Kitabın üzərində onun şəxsi möhürü də var.

Əbülfət ağa bütün ömrü boyu, hətta rus-yapon müharibəsində bu kitabı özü ilə gəzdirib. Ölümündən sonra isə

"Quran" qızına miras qalıb. Müəllif Kostina yazır: "Ə.Şahtaxtinski ömrünün axırına kimi "Quran"dan ayrılmayıb. 1913-cü ildə vəfatından sonra "Quran" onun qızı Qonçə xanıma miras qalıb. Qonçə xanım Varlan Mdivaniyə ərə getmişdir. Onların oğlu Nikolay 1937-ci ildə sürgün edildikdən sonra, "Quran"ı onun arvadı Nina Stas 2001-ci ilədək qoruyub saxlayıb. Şahtaxtinskinin Tiflisdə yaşayan nəticələri Nikolay və Natalya Mdivanilər "Quran"ı Azərbaycan Tarix Muzeyinə təqdim etmişlər".

Bu məqalə çox maraqlıdır. Və bir qaranlıq məsələyə də aydınlıq gətirir. Deməli, Əbülfət ağanın Şahtaxtı kəndindəki torpaq siyahısındakı Ketevana Mdivani (Qönçəbəyim) onun qızı imiş. Onların şəcərə qolları Minqreliyaya gedib çıxır.

Bu taleyin qəribəliyi və bolşevik çekistlərinin təqibləri ucbatından olub. Belə ki, 1920-ci il inqilabından sonra Naxçıvanda çekist Orbelyanın, Movsesovun, Poqosovun adı gələndə analar az qala çağalarını gizlədirdilər. Bu cəlladlar düşünən başların qənimi imiş. Elə bil ki, SSRİ adlanan bir ölkədə o vaxtlar başqa bir millət yox imiş ki, Naxçıvana onlardan çekist göndərsinlər. Hay dığaları Lenindən ilham alaraq Tiflisdə, İrəvanda və Naxçıvanda söz sahibi olan Şahtaxtinskilərə də qənim kəsilmişdilər. Məmmədqulu bəyin oğlu Əli ağanın övladları Behbudla Məmmədin taleyi lap faciəli olub. Qardaşlardan biri sovet diplomatı, o birisi isə bolşevik hökumətinin düşməni imiş. Həbsxanadan qaçan Məmməd bəyə böyük qardaşı Behbud ağa sərhədi keçmək üçün icazə kağızı verib. Məmməd ağa çox əziyyətlərdən sonra Fransaya gedib çıxır. Onun oğlu Jan Fransada çox məşhur hərbçi olub. Deyilənlərə görə 1970-ci ildə dünyasını dəyişən Məmməd ağanın oğlu Jan Şahtaxtını görmək üçün dəfələrlə İranın Ərəblər kəndinə gəlibmiş.

Janın oğlu Aleksis Şahtaxtinski 1991-ci ildə babalarının vətənini görmək üçün riskə getdi. Hərbi təyyarə ilə Naxçı-

vana uçdu. Aleksisin o zaman 24 yaşı vardı. Atasının arzusunu yerinə yetirdiyinə görə çox sevinirdi. Poliqlot və diplomat olan Aleksis NATO-nun Rusiyada nümayəndəsi olanda, keçmiş SSRİ məkanında olan bütün Şahtaxtinskiləri tapmaq, onlarla görüşmək arzusu ilə çalışırdı.

Öz ömürlərini və talelərini Azərbaycanın xoş gələcəyi naminə şam kimi əridən, lazım gələndə bu amal naminə canlarını qurban verən Şahtaxtinskilərin tariximizdə əbədi yaşamağa mənəvi haqları var. Onları yaşatmaq, örnək ömürlərini gələcək nəsillərə də öyrətmək bizim borcumuzdur.

## ELİMİZİN BÖYÜK OĞLU – ƏBÜLFƏT AĞA ŞAHTAXTİNSKİ. O, DÖVRÜNÜN TANINMIŞ ZİYALISI VƏ YAZIÇISI OLMAQLA BƏRABƏR, HƏM DƏ ÇAR ORDUSUNUN YÜKSƏK RÜTBƏLİ ZABİTİ OLUB

Azərbaycan tarixində mühüm yer tutan, elm, sənət xadimi, eləcə də mahir hərbçi kimi şöhrət tapan Şahtaxtinskilər nəslinin nümayəndələrindən biri də Əbülfət ağa Nəcəfqulu oğlu Şahtaxtinskidir.

O, 1858-ci ilin oktyabr ayında indiki Kəngərli rayonunun (keçmiş İrəvan quberniyasının) Şahtaxtı kəndində, zadəgan ailəsində doğulmuşdur.

Onun atası İrəvan quberniyasının əsilli-köklü bəylərindən idi. Onların İrəvan və Naxçıvan şəhərlərində də mülkləri vardı. Elə Əbülfət ağanın böyük qardaşı İsa Sultan da İrəvanda doğulmuşdu. Dövrünün tanınmış ziyalısı olan Nəcəfqulu ağa övladlarına ilk təhsili evdə vermişdi. Sonra isə o, oğlanlarını Naxçıvan şəhərindəki rus dili təmayüllü məktəbdə oxutdurmuşdu.

1865-ci ildə Nəcəfqulu ağa 14 yaşlı İsa Sultanı Tiflisə aparmış və məşhur gürcü maarifçisi D.Kipianinin pansionunda oxumağa qoymuşdu.

1871-ci ildə isə o, kiçik oğlu Əbülfət ağanı Tiflis Real Gimnaziyasına qoyur. Əbülfət ağa 1877-ci ildə gimnaziyanı uğurla başa vurub həmin il də Peterburq Texnologiya İnstitutuna daxil olmuşdu. Ruhən azadlıq mücahidi olan Əbülfət ağa institutda tələbə hərəkatına qoşulmuş, tələbələri qadağan olunmuş toplantılara təhrik etdiyinə görə 1879-cu ilin dekabr ayında institutdan xaric edilmişdir.

Qeyd edək ki, Əbülfət ağa qafqazlı, əsasən azərbaycanlı və dağlı xalqları birləşdirən "İmdadiyyə" təşkilatının fəal üzvü olmuşdur. Bu təşkilatın qurucusu və ona rəhbərlik edən isə Azərbaycanın gələcək görkəmli dramaturqu Nəcəf bəy

Vəzirov idi. Nəcəf bəy də həmin vaxt tələbə idi. 3 mart 1878-ci ildə 19 yaşlı Əbülfət ağa Nəcəf bəy Vəzirova çılğınlıqla yazmışdı: "İmdadiyyə"nin nizamnaməsini aldım. Yaxınlaşan yay "İmdadiyyə"nin əsas müddəalarının müzakirəsini təxirəsalınmaz vəzifəmizə çevirir. Müzakirə ona görə lazımdır ki, biz ölkənin müxtəlif yerlərinə yollanarkən bir məqsəd uğrunda hərəkət edə bilək. Biz öz məqsədimizə nail olmaq üçün bütün vasitələri nəzərdən keçirməliyik. Həmin məqsəd kifayət qədər aydın və dəqiq şəkildə müəyyənləşdirilməlidir. Məqsədimiz sakitliyimizi pozan vicdan əzabının burjua rahatlığı naminə dəf edilməsi deyil. Məqsədimiz pisliyin kökünü yerli-dibli kəsmək üçün mümkün qədər çox işlək əl hazırlamaqdır. Biz vasitə və vəsait axtarırıq, deməli onda işçi əllər, ağırlığı öz üzərinə götürən qüvvələr tərbiyə etməliyik. Biz tərəqqipərvər adamlar kimi, nəzərlərimizi yalnız cəmiyyətin aşağı təbəqələrinə yönəltməliyik".

Bu məktub Rusiya İmperiya Təhlükəsizlik İdarəsinin əlinə keçir. Onlar məktubu çar II Aleksandra təqdim edirlər. Çar isə belə bir dərkənar yazır: "Göstərilən şəxslərin üzərinə diqqət hökmən gücləndirilməlidir".

Təqib edilən Əbülfət ağa institutdan qovulmuş və ona Rusiyanın ali məktəblərində oxumaq qadağan edilmişdi.

1879-cu ildə Əbülfət ağa Moskvaya gəlir və Lazarev adına Şərq Dilləri İnstitutunda oxumağa başlayır. Amma o, burada da diplom ala bilmir. Əbülfət ağa 1880-ci ildə Almaniyaya gedir və Heydelberq Universitetində diplom işini müdafiə edir və bakalavr dərəcəsini alır. Sonra Rusiyaya dönən Əbülfət ağanı həmin diplomla qulluğa götürmürlər. Və Əbülfət ağa artıq dördüncü dəfə ali məktəbdə oxumaq məcburiyyətində qalır. Hərbçi olmağı qərara alan Əbülfət ağa 1883-cü ildə Peterburqda yunker məktəbində oxuyur. Ömrünün qalan illərini də ordu ilə bağlayır.

Peterburq yunkerlər məktəbini fərqlənmə diplomu ilə

qurtaran Əbülfət ağa 1904-1905-ci illərdə rus-yapon müharibəsində batalyon komandiri olmuşdur. 25 yaşından taleyini hərbi sənətlə bağlayan Əbülfət ağa müharibəyə qədər özünü mahir bir hərbçi kimi tanıtmışdır. Əgər biz onun Moskva, Tiflis və Peterburq arxivlərində saxlanılan xidmət kitabçasını əldə edə bilsək, bu cəsur sərkərdənin çox yüksək hərbi mükafatlar aldığını görərik. Onu da deyək ki, rus-yapon müharibəsində məharətlə vuruşanda Əbülfət ağanın 47 yaşı var idi. Yunker məktəbini bitirəndən sonra haralarda xidmət etməsi isə hələlik araşdırılmayıb.

Müharibədən sonra yenə də hərbi işdən ayrılmayan Əbülfət ağa 1912-ci ildə polkovnik rütbəsi alır. Mənbələrdə onun həmin illərdə Rusiyanın hərbi nümayəndəsi kimi İsveç ordusunun manevrlərini müşahidə etdiyini göstərirlər.

Bir neçə dili kamil bilən və tariximizdə filoloq, yazıçı və döyüşçü kimi qalan Əbülfət ağa XIX-XX yüzillikdə azərbaycanlı ziyalıların ən məşhur nümayəndələrindən biri idi. O, tərcümə işi ilə də məşğul olmuş, İ.V.Qotenin "Gənc Verterin iztirabları" kitabını ilk dəfə Azərbaycan dilinə çevirmişdir.

Əbülfət ağa iki dəfə ailə qurmuşdur. Onun birinci arvadı Minqrel zadəganlarından birinin qızı olmuşdur. Əbülfət ağa ikinci dəfə yaxın qohumu, məşhur publisist və ictimai xadim, "Şərqi-rus" qəzetinin yaradıcısı Məhəmməd ağa Şahtaxtinskinin qızı Balabəyimlə ailə qurmuşdur. Həmin nikahdan onun üç oğlu olmuşdur: Sadıq, Abbas və Nəcəf. Və onların üçü də hərbçi sənətini seçmişdir. Nəcəf bəy Şahtaxtinski (1898-1937) Tiflisdə hərbi kadet məktəbini, sonra isə Sankt-Peterburq şəhərində Mixaylovsk Artilleriya Məktəbini bitirmiş, çar ordusunda xidmət etmişdir. Onu da qeyd edək ki, Nəcəf bəy Şahtaxtinski 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının milli ordusunda zabit olmuşdur. Bolşevik hökuməti qurulandan sonra yenə də orduda qalmış

və Artilleriya alayında qərargah rəisi vəzifəsində çalışmışdır. 1931-ci ildə bolşeviklərin təqiblərindən yaxa qurtara bilməyən Nəcəf bəy həbs olunmuş və sürgünə göndərilmişdir. 1937-ci ildə NKVD-nin qərarı ilə güllələnmişdir. Əbülfət ağanın hələlik doğum və ölüm tarixi məlum olmayan oğlu Sadıq bəy Şahtaxtinski də 1918-ci ilin fevralında Peterburqda tələbə olarkən könüllü olaraq Qırmızı Orduya daxil olmuşdur. Sonralar o, orduda komanda heyətinin idarə rəisi vəzifəsində çalışmışdır. 1940-cı ildə yaxın qohumu, o vaxtlar təhsil naziri işləyən Həmid bəy Şahtaxtinskinin istintaq işinə cəlb olunmuş Sadıq bəyin sonrakı taleyi naməlumdur.

1920-ci ildə Kreml yanındakı hərbi kursantlar məktəbini bitirmiş Abbas bəy Şahtaxtinskinin taleyi haqqında isə hələlik heç bir məlumat yoxdur.

Bütün həyatını və fəaliyyətini Azərbaycanın və onun ayrılmaz hissəsi olan Naxçıvanın müstəqilliyinə sərf etmiş Əbülfət ağa Şahtaxtinski 1913-cü il martın 13-də Kutaisi şəhərində vəfat etmişdir. Öz vəsiyyətinə görə çox sevdiyi Şahtaxtı kəndində, babalarının yanında dəfn olunmuşdur.

Topladığımız məlumatlara görə onun cənazəsi çarın və Qafqaz canişininin əmri ilə Tiflisdən xüsusi hərbi qatarla Şahtaxtı kəndinə gətirilmiş, vağzaldan Şahtaxtinskilərin ailə nekropoluna kimi toplafetin üstündə, fəxri əsgərlərin əhatəsində aparılmış və topların yaylım atəşi altında torpağa tapşırılmışdır. Şərur mahalındakı qədim Kəngərli yurdunun - Şahtaxtının adını hərb tariximizə qızıl hərflərlə yazan Əbülfət ağa Şahtaxtinskiylə fəxr etməyə dəyər.

# GÖRKƏMLİ DÖVLƏT XADİMİ BEHBUD AĞA ŞAHTAXTİNSKİNİN NƏSİL ŞƏCƏRƏSİ VƏ ONUN QƏRBİ AVROPADA YAŞAYAN QOHUMLARI

Azərbaycanın xarici siyasət və diplomatiya tarixində böyük işlər görmüş Behbud ağa Əliağa oğlu Şahtaxtinski haqqında son illərdə maraqlı elmi əsərlər işıq üzü görmüşdür. Sevindirici haldır ki, bu sahədə Naxçıvanda maraqlı tədqiqatlar aparılmışdır. Behbud ağa Şahtaxtinski qədim bir türk nəslinin övladı olsa da, 1930-cu ildən bəri nəşr edilən kitablarda, ensiklopediyalarda onun atasının adı qeyd olunmamışdır.

Yalnız "Naxçıvan" (iki cildlik, 2005) ensiklopediyasında ilk dəfə onun atasının adı göstərilmişdir. Ara-sıra mətbuat səhifələrində Şahtaxtinskilərlə bağlı yazılar dərc etdirsək də, bunlar heç də onların nəsil tarixlərinin, həmçinin fəaliyyətlərinin tamamilə öyrənilməsi rolunu yerinə yetirə bilməyib. Ona görə də bir neçə illərdir ki, müxtəlif arxiv fondlarından əldə etdiyimiz sənədlər əsasında Şahtaxtinskilərin nəsil şəcərələrini hazırlayırdıq. Artıq bu iş başa çatıb. Arxiv sənədləri hətta imkan verib ki, onların hərbi sahədə gördükləri işləri və aldıqları mükafatların siyahılarını da sizlərə təqdim edək.

Əvvəlcə bir məsələyə aydınlıq gətirmək istərdik. Çünki bəzən bizə də bununla bağlı çox müraciətlər olur. Tarixi şəxsiyyətlərin adlarının yanında "bəy", yaxud "ağa" sözlərini hər kəs (tədqiqatçılardan söhbət gedir) istədiyi kimi işlədə bilərmi? Yox. Çünki bu müraciət formalarının tarixi kökü çox qədimlərə gedib çıxır. Hələ qədim oğuz tayfaları öz tayfalarına başçılar seçirdilər. Sonralar hərbi-feodal hakimlər müraciət formalarını da müəyyənləşdirdilər. Atlı süvari dəstələri döyüş aparmadığı illərdə əkinçiliklə də məşğul olurdular. Ancaq hərbi işə sadiqlik həmişə diqqət mərkəzində saxlanılırdı. O zamanlar verilən titullardan xan, bəy və ağa mü-

raciət formaları XXI əsrə də gəlib çatıb. Məşhur ensiklopediyaçılar Brokhauz və Yefron 1892-ci ildə tərtib etdikləri lüğətdə "bəy" titulu haqqında geniş izahat vermişlər. Onlar bildirmişlər ki, bu, qədim türk sözüdür. Əvvəllər çox yüksək mənsəb sahiblərinə verilirdi, sonralar isə bəzən xanın çox sədaqətli nökərlərinə də "bəy" müraciət formasını işlətməsinə əmrlə icazə verilirdi: Yüksək mənsəb sahiblərinin, o cümlədən xanların övladlarına bəy deyilir və yazılırdı. Gələcəkdə "xan", yaxud "sultan" titulunu qazanmaq onların hərbi bacarıqlarından asılı idi.

"Bəy" titulu haqqında geniş məlumatı Brokhauz və Yefronun ensiklopediyasında oxumaq olar (3-cü cild, 6-cı yarımcild, Sankt-Peterburq, 1892). Maraqlı haldır ki, Türkiyə hökmdarlarına xərac verən moldav və valaxiya knyazları da "bəy" titulu daşımışlar (bax. Yujakovun ensiklopediyası). Sonralar bolqar, samos (yunan) knyazları da bu adı daşımışlar.

XVIII əsrin ikinci yarısından etibarən, daha doğrusu, 1747-ci ildən, yəni, müstəqil Azərbaycan xanlıqları yarandığı vaxtdan isə titullar xan, bəy, məlik, sultan, naib və ağa formasında işlədilmişdir.

"Ağa" titulunu xanın ən yaxın qohumları və əcdadları zadəgan, əslli-nəsilli olanlar, səfəvi şahlarının, sonralar Nadir şahın ordusunda hərbi xidmətlər göstərən şəxslər daşıyırdı. Qanuna görə onların övladlarına da belə müraciət olunurdu. Ona görə də Behbud ağa və ya Behbud bəy, həmçinin onun atasının adının Əli bəy, yaxud Əli ağa yazılmasında elə bir ciddi səhv yoxdur. Əsl həqiqətdə isə Şahtaxtinskilərin mənsub olduqları qazaxlar və cəmşidli qolları (bu qollar da Kəngərli tayfasına daxildir) "ağa" titulunu çox qədimlərdən daşımışlar.

Naxçıvan xanlığına aid müxtəlif dilli mənbələrdə bu haqda xeyli maraqlı məlumatlar vardır. Ancaq 1828-ci ildən

sonra müəyyən qədər bu qayda pozulub. Buna baxmayaraq, yenə də çarın və onun canişininin göstərişi olmadan heç kim istədiyi titulu və familiyanı işlədə bilməzdi. Arxivlərimizdə bunlar haqqında maraqlı sənədlər var. Yəqin ki, gələcəkdə tədqiqatçılar öz tədqiqatlarında bu barədə ətraflı məlumat verəcəklər. Behbud ağanın babaları da (əlimizdə olan sənədlərə görə) XII-XIII yüzilliklərdən "ağa" titulunu çox sədaqətlə daşımışlar. Naxçıvan tarixini kompleks şəkildə öyrəndikcə və tədqiqat apardıqca Şahtaxtinskilərin də xidmətlərinin çox əvəzsiz olduğu görünür. Bəzən aralarında olan münaqişələrə baxmayaraq onlar həmişə Naxçıvan xanlığının əsas aparıcı qüvvələri olmuşlar.

Rəsmi sənədlərə əsasən I İsa Sultan Şahsultan oğlunun Cəfərqulu sultan, Hacı Vəli ağa, Nəcəfqulu sultan, Məmmədtağı sultan, Hüseynqulu sultan, Zeynalabdin sultan və Məmmədqulu sultan adlı oğlanları olub. Ola bilsin ki, gələcəkdə digər övladlarının da adlarına rast gəlinsin. Onun bu övladlarının hamısı məşhur hərbçilər olub. Həmin şəxslərdən biri də Məmmədqulu sultandır. Şahtaxtinskilərdən olan ağsaqqalların və ağbirçəklərin (1978-80-ci illərdə) dediklərinə görə, Behbud ağanın atası Əli ağa Məmmədqulu sultanın oğludur. Əlimizdə olan məlumata görə, Əli ağanın Məmməd ağa və Behbud ağa adında iki oğlu olub. Ancaq Behbud ağanın sağ qalan qohumlarının dediklərinə görə, Əli ağanın Mustafa ağa adında da oğlu olub. Varisləri indi Şərurdakı Dərvişlər kəndində və Bakıda yaşayırlar. Hələlik biz əsasən Behbud ağanın qardaşı Məmməd ağa haqqında danışmaq istərdik.

Məmməd ağa Əli ağa oğlu Şahtaxtinski 1886-cı ildə Şərur mahalının Kəngərli elində, Şahtaxtı kəndində anadan olub. Onun babaları təməli Elxanilər tərəfindən qoyulan Şahtaxtı şəhərinin (XIII-XIV əsrlər) sahibləri olmuşlar və Ağacıq titulunu daşımışlar (bu haqda I İsa Sultanın rus

elçilərinə dediyi cümlələrin sənədi Naxçıvan MR Dövlət Arxivində saxlanılır).

Məmməd ağa haqqında olan məlumata görə o, mükəmməl təhsilli yol mühəndisi kimi 1918-ci ildə demokratik hökumətdə çalışmışdır. Ancaq XI Qızıl Ordu Bakını işğal edəndən sonra dərhal həbs edilənlərdən biri də o olmuşdur. Ağıllı başları dərhal gilyotində (edam maşını) kəsən erməni bolşevikləri Məmməd ağaya da əlüstü ölüm hökmü kəsirlər. Ancaq özünün iti ağlı və bacarığı onu ölümdən qurtarır. Həbsxanada olan qarışıqlıqdan istifadə edən Məmməd ağa məhbuslarla görüşə gəlmiş adam kimi çıxıb gedir. Bəzi qohumlarının dediyinə görə o, gözətçiyə xeyli miqdarda qızıl onluq verib aradan çıxır. Həmin gecə yubanmadan qatarla Naxçıvana yola düşür. Naxçıvanda buraxılış sənədi əldə edir. Əvvəlcə qatarla İrana gedir. Orada bolşeviklərin casuslarından ehtiyat edərək Türkiyəyə yollanan Məmməd ağaya buraxılış vəsiqəsini böyük qardaşı Behbud ağa vermişdir. İdeya cəhətdən tamam ayrı fərdlər olsalar da, onlar doğma qardaş idilər. Yəqin ki, doğmalıq hissi kommunist ideyalarına qalib gəlib.

Behbud ağa Azərbaycanda sovetləşmə dövründən sonra çox yüksək vəzifələrdə işləyib. Bu haqda çox yazıldığından biz onları təkrarlamağı məqsədəuyğun bilmədik. Hələlik Məmməd ağanın Türkiyədə nə ilə məşğul olmasından, harada yaşamasından heç nə deyə bilmərik.

Ancaq tədqiqatçı və Şahtaxtinskilərin yaxın qohumu olan Gülrəna Mirzə Qacarın axtarışları Məmməd ağanın oğlunun və nəvəsinin Fransada - Parisdə yaşamaları haqqında ilkin məlumat verdi. Məmməd ağanın oğlu Jan ingilis dili professoru olsa da, gənclik illərində Fransa Hərbi Dəniz Donanmasının zabiti olmuşdu. Hətta NATO-nun mənzil qərargahı Parisdə yerləşdiyi illərdə orada əlaqələr şöbəsinin işçisi olmuşdur. Əldə olan məlumatlara görə, Jan Fransa

Prezidenti de Qolun tərcüməçisi kimi fəaliyyət göstərmişdir. Maraqlı haldır ki, o, bu vaxtlar Şahtaxtinski familiyasını fəxrlə daşımışdır.

Jan mahir səyyah kimi öz maşını ilə dünya ölkələrini qarış-qarış gəzib-dolaşsa da, onu Azərbaycana və əcdadlarının vətəni olan Naxçıvana buraxmırdılar.

Əlbəttə, o vaxt SSRİ-nin təhlükəsizlik orqanları Janın kimlərin varisi olduğunu yaxşı bilirdilər. 1985-ci ilin yayında Jan Kiyevə gəlir və şəhər telefon kitabçasında üç nəfərin Şahtaxtinski familiyasına rast gəlir, onları axtarıb tapır. Yaxın qohum olduqları məlum olur. 1986-cı ildə Jan ilk dəfə həyat yoldaşı, rus mühacirlərinin qızı olan Marqarita Kovalenko və oğlu Aleksislə birlikdə Bakıya gələ bilir. Amma onun xahişlərinə baxmayaraq, ona yenə də Naxçıvana getməyə icazə verməyiblər.

O da atası kimi vətən həsrətilə 1990-cı ilin əvvəllərində qürbətdə vəfat edir. Atasının arzusunu onun oğlu Aleksis 1991-ci ildə yerinə yetirir. 1967-ci ildə Fransanın paytaxtı Paris şəhərində anadan olan Aleksis Şahtaxtinski uşaqlıqdan poliqlot kimi tanınmışdır. O, 10-a qədər xarici dil bilir. Anası Fransada poliqlot kimi tanındığından öz oğluna rus dilini də mükəmməl öyrətmişdi, çünki Aleksis siyasət və diplomatiya yolunu seçmişdi. O, Fransanın ən ali diplomatiya məktəbi sayılan "Sciences Politique"də təhsil almışdır. Onun Bakıda yaşayan yaxın qohumlarının dediyinə görə, Aleksis uşaq yaşlarından fitri istedada malik olub.

Seçdiyi fəal həyat mövqeyi - diplomatik fəaliyyət onu Fransanın XİN-nə və Yuqoslaviyadakı hərbi xidmətə gətirib çıxarmışdır. O, 1998-ci ilin yanvar ayından Moskvada NATO-nun Rusiyadakı nümayəndəsi vəzifəsini çox məharətlə yerinə yetirmişdir. O, bu fürsətdən istifadə edərək keçmiş SSRİ məkanını xeyli gəzib dolaşmışdır. Sonralar isə yenidən Parisə qayıtmışdır.

1991-ci ildə hərbi təyyarənin heyəti ilə dil taparaq qorxu bilmədən böyük risklə Naxçıvana uçub gələn Aleksis Şahtaxtinski özünü dünyanın ən xoşbəxt adamı sanırdı. Qəribə bir təsadüf onu bu qədim məkanla görüşürdü. Bir vaxtlar sağ qalmaq ümidi ilə babası Məmməd ağa Qərbə üz tutmuşdu. İndi onun 23 yaşlı diplomat nəvəsi babalarının ruhları gəzib dolaşan qədimdən-qədim Naxçıvanı görməyə və doğma vətən havasını udmağa gəlmişdi. Onun ulu əcdadları Qafqazdan Şərqi Avropayadək at üstündə - süvari kimi vuruşa-vuruşa getmiş və misilsiz hünərlərin sahibləri olmuşlar. O, ulu babalarını unuda bilmir və onlarla haqlı olaraq fəxr edir.

## TÜRKİYƏNİN İSTİQLAL SAVAŞINDA İŞTİRAK EDƏN QAZİ NAXÇIVANLI ÇİNGİZ YURTÇU ŞAHTAXTİNSKİ KİMDİR?

Türkiyəli yazar Fəthi Gədiklinin mətbuatda çap olunmuş "Danışan məzarlar" adlı bir yazısını maraqla oxuduq. Onun böyük məhəbbət və dərin yanğıyla Çingiz bəy Şahtaxtinski haqqında yazdıqları diqqətimizi daha çox çəkdi, çünki Türkiyənin istiqlal savaşında mərdliklə döyüşən, həlak olan və əlil Qazi kimi ömrünü yaşayıb dünyadan köçən azərbaycanlı oğullarımız yüzlərlədir. Yəqin ki, bu yöndə ciddi axtarışlar onların unudulmasına imkan verməz.

Biz də Çingiz Yurtçu Şahtaxtinski haqqında bildiklərimizi yazmaq arzusunda olduq. Çingiz bəy 1898-ci ildə Naxçıvanda - Şərur mahalının Şahtaxtı kəndində anadan olmuşdur. Onun atası Əliqulu ağa Rusiya ordusunun mayoru olmuşdu. Ordudan əlil kimi istefaya buraxıldıqdan sonra ulu əcdadlarının çox sevib öyündüyü Şahtaxtı kəndində yaşayırdı. Əliqulu ağanın atası Hacı Vəli ağa nəinki Naxçıvan və İrəvanda, hətta o vaxtlar Qafqazın mərkəzi sayılan Tiflisdə çox tanınan bir zadəgan olub. "Kavkaz" qəzetində (1856-cı il) Qafqazın baş komandanı general-adyutant Muravyovun həmin ilin 6 iyulunda verdiyi bir əmrdə Hacı Vəli ağa Hacı İsa Sultan oğlunun "İgidliyə görə" qızıl medalla təltif olunması haqda məlumatı da tapa bildik. Hətta onun Rusiya ordusunda daşıdığı vəzifənin adı da göstərilib: müsəlmanlardan ibarət olan atlı süvari polkunun naibi, yəni ki, komandiri. Qeyd edək ki, bu polkun hamısı Naxçıvan Kəngərliləri idilər.

Belə bir babanın ailəsində böyüyən və tərbiyə alan Çingiz bəy ilk təhsilini Naxçıvandakı rus-tatar (azərbaycanlı) məktəbində almışdı. Hələlik tapdığımız arxiv sənədlərinə əsasən Əliqulu ağanın İlyas ağa (o da Türkiyədə yaşayıb), İsmayıl ağa və Məmmədhüseyn ağa adlı oğlanlarının olmasını bilirik. Bunlar Çingiz bəyin doğma qardaşlarıdır.

1918-ci ilə qədər Çingiz bəyin Tiflisdə və Sankt-Peterburqda hərbi təhsil alması haqqında hələlik şifahi məlumatımız var. Yəqin ki, Tiflis arxivlərində bu haqda onun sənədləri vardır. 1918-ci ildən sonra Çingiz Şahtaxtinskinin adına Naxçıvan tarixi ilə bağlı yazılan sənədlərdə rast gəlirik. Erməni daşnakları Qarsda, İrəvanda, Şərurda və Naxçıvanda azğınlıq etdiyi illərdə (1918-1920) onun adı ən yaxşı döyüşçü kimi çəkilir. Hətta türkiyəli araşdırıcıların da bu illərə aid yazdıqları kitablarda da Çingiz bəyin adı çəkilir.

Çingiz bəyin Naxçıvanda yaşayan əmisi oğlu Şahtaxtinskilərin ağsaqqalı Kamil ağanın dediyinə görə, Çingiz Yurtçu könüllü olaraq Rusiya hökumətinin rəsmi icazəsi ilə Türkiyəyə gedib. Kamil ağanın anası qarxunlu Zivər xanımın oğluna söylədiyi xatirələrindən məlum olur ki, həmin illərdə Naxçıvana köməyə gələn türk əsgərlərinin qərargahı Şahtaxtı kəndində yerləşirmiş. Və Xəlil bəy Şahtaxtinskilərin yaxın dostları imiş. 1921-ci ildə Moskvaya gedən Türkiyə hökumət nümayəndə heyətini mühafizə edənlərdən biri də Çingiz bəy Şahtaxtinski idi. Sonralar Türkiyə istiqlal savaşında mərdlik göstərən bu naxçıvanlı igidi Kamal Atatürkün də yaxşı tanıdığını söyləyirlər. Qohumlarının dediyinə görə, Çingiz bəyin İstanbulda bir qızı yaşayıb, yaxud yaşayır. Bu haqda dəqiq məlumat öyrənə bilmədik. Qohumlarının dedikləri bir əhvalat çox maraqlıdır. Döyüşlərdə əlil olan Çingiz bəy ömür-gün yoldaşına yazır ki, artıq yarımadam olmuşam. Bilmirəm indi məni sevəcəksən, ya yox? Əgər sevməyəcəksənsə evə qayıtmayım. Həyat yoldaşı isə ona yazır ki, indi daha çox sevəcəyəm, sən Türkiyənin müstəqilliyi uğrunda Qazi oldun. Qaldı onun məzar daşında yazılan "Yurtçu" sözünə. Bunu incələmək üçün bir az Kəngərlilərin soykökü tarixinə ekskurs etməliyik. Bu hamımız üçün maraq doğurar. Əvvəlcə onu deyək ki, Şahtaxtinskilər rus etnoqrafçı şərqşünas alimlər tərəfindən Kəngərlilərin ümumi siyahısına daxil edilsələr də, bu elmi məsələ ciddi araşdırılmayıb.

1859-cu ildə Rusiyada aparılan kameral siyahılarda Şahtaxtinskilərin ulu babalarının adı Ağacir ağa olduğu bildirilir. Çox qədim zamanlardan zadəgan nəsil olduğunu da qeydə alıblar. Və burada göstərilib ki, onlar qazaxlar tayfasına mənsubdurlar. Bəzən onlara Cümşüdlü də deyilib. Bir vaxtlar I İsa Sultanın da çar canişininə dediyi "Biz qazaxlar tayfasındanıq!" - sözləri bu məsələnin ciddiliyindən xəbər verir. Məsələni araşdırarkən aydın oldu ki, qazaxlar tayfası əsasən Araz çayının vadilərində yaşayırlar. Belə mənbələrdən biri 1843-cü ilə aiddir: "Xozyastvennıye oçerki çasti Arakskoy dolinı, voşedsey v sostav Qruzino-İmeretinskoy qubernii" (SPb., səh. 46) sənədlər toplusudur. Orada göstərilir ki, qazaxlar da Kəngərlilərdir. Hətta qarapapaqların da qazaxlar tayfasına daxil olduğunu yazıblar. Bir ip ucu olsun deyə Şahbuzun Kolanı kəndində əsasən Kəngərlilərin yaşadıqlarını bildiririk. Oradakı nəsillərdən biri elə indinin özündə qazaxlar adlanır. Bəzən çoxlarına elə gəlir ki, bu Qazax rayonunun adı ilə bağlıdır. Yox, elə deyil. Yuxarıdakı mənbə qazaxların çox qədimlərdən Araz çayı vadisində yaşadıqlarını xəbər verir. Bunun ciddi araşdırmalara ehtiyacı var. Kəngərlilərin bir qolu Yurdçu adlanır. Onlar əsasən Kəngərli rayonunun kəndlərində, o cümlədən Şahtaxtı kəndində və Babək rayonunun Cəhri, Xəlilli kəndlərində, həmçinin Naxçıvanda yaşamaqdadırlar. Kəngərlidəki Yurdçu kəndi Şahtaxtinskilərin ata-babadan miras kəndləri olub. Əliqulu ağanın da miras torpaqları əsasən Şahtaxtı və Yurdçuda yerləşib. Bu haqda arxiv sənədlərində məlumat vardır.

Bizcə, Çingiz bəyin məzar daşında yazılan "Yurtçu" adı onun Kəngərli tayfasına mənsubluğunu bildirir. Fəthi Gədiklinin yazdığından məlum olur ki, Çingiz bəy 1961-ci il 4 fevralda İstanbulda vəfat edib və Qaracaəhməd məzarlığında torpağa tapşırılıb.

İstanbul dünyanın qədim və gözəl şəhərlərindən biridir.

İstanbulda böyük Qaracaəhməd qəbiristanlığının üçüncü hissəsində, girişdən sol tərəfdə igid bir eloğlumuz uyuyur. Hər birimizin İstanbula yolu düşəndə həmin kədərli ünvanda uyuyan qəhrəman Çingiz bəy Şahtaxtinskini yad etmək mənəvi borcumuzdur. Axı o, həm də 1918-1920-ci illərdə doğma Naxçıvanımızın öndə vuruşan oğullarından olub. Arzumuz budur ki, Türkiyənin istiqlal savaşında iştirak edən naxçıvanlıların həyat və fəaliyyətini daha dərindən araşdırıb doğma tariximizin səhifələrində yaşadaq.

# GÖRKƏMLİ DÖVLƏT XADİMİ HƏMİD AĞA ŞAHTAXTİNSKİNİN NƏSİL ŞƏCƏRƏSİ

Azərbaycan Demokratik Cümhuriyyətinin qurucularından olan Həmid ağa Xəlil ağa oğlu Şahtaxtinski sovet hakimiyyəti illərində çap edilən ensiklopediyalarda sovet maarifçisi kimi təqdim edilirdi. Onun elmi xidmətlərini səthi olaraq sadalasalar da, 1918-20-ci illərdəki siyasi fəaliyyətindən bir kəlmə də olsun yazmırdılar.

Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra nəşr edilən iki cildli "Naxçıvan" ensiklopediyasında və Azərbaycan Xalq Cümhuriyyətinin iki cildli ensiklopediyasında Həmid ağanın Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizədən və gördüyü işlərdən ətraflı məlumat verilmişdir. Şahtaxtinskilərin şəcərəsini işləyərkən onun ulu əcdadları haqqında yeni məlumatlar əldə etdik. Məqsədimiz bir daha Həmid ağa haqqında bildiklərimizi yada salmaq və araşdırmalar nəticəsində öyrəndiklərimizlə bu bilgilərimizi daha da zənginləşdirməkdir.

Həmid ağa Xəlil ağa oğlu Şahtaxtinski 12 mart 1880-ci ildə Şərur mahalının Şahtaxtı kəndində anadan olmuşdur. Onun atası Xəlil ağa da əmiləri, qardaşları və babaları kimi hərbçi idi. Əvvəllərdə dediyimiz kimi onların qılıncları iti olduğu kimi, qələmləri də çox kəskin idi. Çünki maarifçiliyi də hərbçilik kimi çox müqəddəs iş bilirdilər.

Xəlil ağanın atası Hüseynqulu Sultan I İsa Sultanın oğludur. I İsa Sultan özü və oğlanlarının hamısı çox bacarıqlı hərbçilər olub. Moskva və Tiflis arxivlərində bunlar haqqında xeyli maraqlı sənədlər vardır. Yeri gəlmişkən, I İsa Sultan Naxçıvan xanlığında çox nüfuzlu şəxslərdən olub və 1838-ci ildə vəfat edib.

Xəlil ağanın Həmid ağa, Əkbər ağa və Şəmsəddin bəy (ona Şamil bəy də deyirmişlər) adlı oğlanlarının olduğu

sənədlərdə qeyd edilib. Həmid ağa ilk təhsilini rus ibtidai məktəbində almış, 1895-ci ildə isə üçüncü dərəcəli Naxçıvan şəhər məktəbini bitirmişdir. Sonralar Şahtaxtinskilərin doğma şəhərləri olan İrəvanda Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir. 1899-cu ildə həmin seminariyanı əla qiymətlərlə bitirərək orada işləmək üçün saxlanılmışdır. Həmin seminariyada Azərbaycan və rus dillərindən dərs deyən Həmid ağa bu illərdə qədim türk şəhəri olan İrəvanda Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur.

Sonralar o, daha da mükəmməl təhsil almaq arzusu ilə Odessaya getmiş və Novorossiysk Universitetində oxumuşdur. Amma Həmid ağa burada hüquq fakültəsində oxumuşdur. 1912-ci ildə universiteti bitirən Həmid ağa Gəncəyə işləməyə dəvət olunmuşdur. Həmid ağa da digər qohumları kimi təhsil aldığı illərdə ictimai-siyasi işlərdə fəallıq göstərmişdir. Yeri gəlmişkən, Odessada oxuyarkən "Azərbaycan həmyerlilər təşkilatı"nın başçılarından olmuşdur. Gəncədə yaşadığı illərdə Gəncə şəhərində, daha doğrusu, o vaxtlar Yelizavetpol adlanan quberniyanın xalq məktəbləri inspektoru vəzifəsində çalışmışdır. O həm də Gəncədə yaşadığı illərdə Yelizavetpol dairə məhkəməsində andçı-müvəkkilin köməkçisi vəzifəsində işləmişdi.

1916-cı ildə Bakıya köçüb dairə məhkəməsində fəaliyyətini davam etdirən Həmid ağa 1917-ci ildən siyasi işlərə ciddi maraq göstərmişdir. 1917-ci ildə baş verən fevral inqilabından sonra öz həyatını tamamilə siyasi işə həsr edən Həmid ağa bu vaxtlar "İttihad" partiyasına üzv olur. Həmin ilin 29 avqustundan etibarən Cənubi Qafqaz Təhsil İdarəsinin komissarı vəzifəsində işləyən Həmid ağa Şahtaxtinski Azərbaycan Milli Şurasının üzvü olmuş, 2,3 və 4-cü hökumət kabinələrində maarif nazirinin müavini, 5-ci hökumət kabinəsində maarif və dini etiqad naziri işləmişdir. Ancaq 1920-ci ildə mart ayının 5-də bu vəzifələrdən istefa vermişdir.

Azərbaycan parlamentinin üzvü olan Həmid ağa maarifçilik ənənələrinə sadiq qalmışdır. Dərsliklər yazmaqla bərabər, Bakı Dövlət Universitetinin təşkilində yaxından iştirak etmiş, burada müəllim və prorektor (1919-1925-ci illərdə) vəzifəsində özünün elm sahəsində fenomenal alim olduğunu önə çəkmişdir.

Azərbaycanda sovet hökuməti quruldudan sonra siyasi fəaliyyətdən uzaqlaşan Həmid ağa müəllimliklə məşğul olmuşdur. Təqiblərdən yaxa qurtarmaq üçün Tiflisə getmiş və Zaqafqaziya Universitetinin tibb fakültəsində oxumuşdur.

1929-cu ildə Bakıya dönmüş və Azərbaycan Dövlət Tibb İnstitutunda dərs demişdir. O, 1929-cu ildən professor elmi adını ləyaqətlə daşımışdır. 1930-1940-cı illərdə Bakıdakı İkiillik Müəllimlər İnstitutunda da işləmişdir. O, bu illərdə dərsliklərin yazılmasında, lüğətlərin tərtib edilməsində, yeni Azərbaycan əlifbasının yaradılmasında nəinki iştirak etmiş, həm də bu istiqamətdə iş görən bir çox komissiyaların sədri olmuşdur.

1920-ci ildən təqib edilən Həmid ağa 1941-ci ildə həbs edilmiş və uzaq şimala - Arxangelsk vilayətinə sürgünə göndərilmişdir. Arxangelskin ölüm düşərgələrinin hələ də sirləri çox açılmayıb. Buradakı dəhşətləri oxuyanda adamın sümükləri göynəyir. Azərbaycan xalqının mərd, mübariz oğlu Həmid ağa 1944-cü ilin 3 fevralında uzaq Arxangelsk vilayətində məhv edilmişdir. Həmid ağanın Səidə xanım, Aliyə xanım, Məsmə xanım və Leyla xanım adında qızları olmuşdur.

Qızı Leyla əmisi Şəmdin ağanın oğlu Qəzənfər ağa ilə ailə qurmuşdur. Qəzənfər ağanın Zəhra xanım, Şamil ağa, Aydın ağa və Şövkət xanım adında övladları olmuşdur. Onun övladlarının varisləri bu gün Bakıda yaşayır və müstəqil Azərbaycanın tərəqqisi naminə xalq təsərrüfatının

müxtəlif sahələrində ləyaqətlə çalışırlar.

90 il bundan əvvəl Qafqazın, o cümlədən dünyanın ən demokratik ölkələrindən biri olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları sırasında Həmid ağa Şahtaxtinskinin adı bu gün onun vətəni Naxçıvanda da hörmətlə yad edilir. Görkəmli dövlət xadiminin elmi və siyasi fəaliyyəti dərindən tədqiq edilərək gənc nəslə öyrədilir. Çünki müstəqilliyi canlarından əziz bilən şəxsiyyətlər bütün nəsillərin yaşıdı və amal dostudur.

## İSA SULTAN ŞAHTAXTİNSKİ VƏ ONUN VARİSLƏRİ

Naxçıvanda vətənpərvər, təəssübkeş və qeyrətli ziyalılar çoxdur. Onlardan biri də İsa Sultan Şahtaxtinskidir. Onun haqqında elmi monoqrafiyalar yazıldığından biz İsa Sultanın həyatının məlum tərəflərini təkrarlamayacağıq. Amma bəzi məqamlara toxunaraq, bu unudulmaz eloğlumuzun əsasən nəsil şəcərəsindən söhbət açacağıq. Çar Rusiyasında hərbçi olmuş Nəcəfqulu ağa 1851-ci il mayın 5-də İrəvanda doğulan oğlunun adını İsa Sultan qoydu. Bu adı 1838-ci ilədək Nəcəfqulu ağanın atası İsa Sultan şərəflə daşımışdı. Baba İsa Sultan (Şəcərədə onu I İsa Sultan kimi yazırıq) əvvəlcə İran ordusunda, sonralar isə Çar Rusiyasında hərbçi olmuşdu. Tiflis arxivindəki sənədlərdə onun praporşik (gizir) olması haqqında məlumatı da tapdıq. Yeri gəlmişkən onu da deyək ki, Şahtaxtinskilərin hərbi fəaliyyətləri dərindən araşdırılmadığı üçün onların bir çox hərbi təltiflərindən xəbərsizik.

Nəcəfqulu ağa əsasən Şərur mahalının Şahtaxtı kəndində və Naxçıvan şəhərində yaşadığından oğlu İsa Sultan da bir müddət Naxçıvandakı "rus-tatar (azərbaycanlı)" məktəbində təhsil almışdı. Sonralar İrəvanda təhsilini davam etdirmişdi. 1865-ci ildə atası 14 yaşlı İsa Sultanı Tiflisə gətirdi. O vaxtlar Tiflis Qafqazın elm mərkəzi sayılırdı. İsa Sultan gürcü maarifçisi Dmitri Kipianinin pansionunda oxuyarkən alman, fransız, latın və yunan dillərini öyrənmişdi. O, bu dillərlə yanaşı rus, gürcü və ingilis dillərini də bilmişdir. Deməli, bizim diplomat, jurnalist, aqronom, naşir, dövlət məmuru kimi tanıdığımız İsa Sultan həm də yaxşı poliqlotlarımızdan (çox dil bilənlərdən) biri kimi tanınmışdır.

1871-ci ilin sentyabrından onun Peterburq dövrü başlayır. O, Sankt-Peterburqdakı Əkinçilik İnstitutunun II kur-

sunda təhsilini davam etdirir. Yəqin ki, onun bu sahəyə təhsil almağa gəlişi Qafqazdakı torpaq münasibətlərini, necə deyərlər, aqrar sahəni kifayət qədər dərindən öyrənmək, araşdırmaq məqsədini daşıyırdı. Onun babaları Naxçıvanda torpaq sahibkarlarından idilər. Elə atası Nəcəfqulu ağanın Cəhri, Xəlilli (Cümşüdlü), Dib Anzır, Yamxana, Yurdçu və Şahtaxtı kəndlərində əkin sahələri vardı. Bu torpaqlar sonralar İsa Sultana atasından miras kimi qalmışdı.

Sankt-Peterburqdakı tələbəlik həyatı gənc İsa Sultanı daha da açıqfikirli və mübariz bir ziyalı kimi yetişdirdi. Vətənpərvər və çətin məqamlarda belə sözünü qorxmadan deyən İsa Sultan çar xəfiyyəsinin gizlində çox izlədiyi adamlardan biri idi. 1874-cü ildə o, Sankt-Peterburqda təhsil aldığı ixtisas üzrə tam kursu vaxtından əvvəl başa vurdu. Ancaq Tiflisə və Naxçıvana dönməzdən əvvəl Avropanı səyahətə çıxdı. O, Londonda, Parisdə və Sürixdə təbiət elmlərinə aid mühazirələrin dinləyicisi oldu. Uşaqlıqdan dağların və meşələrin vurğunu idi. Buradaca bir haşiyə çıxmaq istərdik. Onun Şahtaxtında yaşayan ata-babalarının Dərələyəzin ən gözəl yerlərində yaylaqları vardı. Hələ uşaqkən getdiyi gözəl yaylaqlardan biri Gədikvəngin yuxarısındakı dağların sinəsində idi. Bu dağlardan başlayan və çox sürətlə Arpaçayla qovuşmağa tələsən Kəngərli çayının sahilindəki yurd yerlərini Şahtaxtinskilərin ağsaqqalları və ağbirçəkləri son illərdə də yaxşı xatırlayırdılar. XX yüzilliyin əvvəllərində İbrahim ağanın şərəfinə adlandırılan "İbrahim ağanın yurdu" bu gün Dərələyəzə aid yazılan kitablarda tez-tez xatırlanır.

Meşələrin insanlara verdiyi fayda İsa Sultanın o qədər marağında idi ki, buna aid çoxsəhifəlik bir elmi iş yazdı. Bu dissertasiyaya görə ona kənd təsərrüfatı və meşəçilik namizədi elmi dərəcəsi verildi ("Kavkaz" qəzeti, 7 noyabr 1894-cü il tarixli nömrəsində).

1876-cı ilin sentyabr ayında Tiflisə dönən İsa Sultanın

25 yaşı vardı. O, Tiflisdə "Tiflis xəbərləri" qəzetində yazılar çap etdirməklə bərabər, həm də qəzetə maddi yardım edirdi. Sonralar elə oldu ki, o, qəzetin siyasət şöbəsinə rəhbərlik etdi. Və Tiflisdə nəşr olunacaq məşhur "Molla Nəsrəddin" jurnalının təsisinə hələ 30 il qalırdı. O, qəzetdə işləsə də, ata vətəni Naxçıvanı unutmurdu.

Təqiblərə baxmayaraq, İsa Sultan 1877-ci il martın 11-də "Kavkazski almanax"ın nəşrinə rəsmi icazə aldı. Bu almanaxda əsasən Qafqazşünaslıq və Qafqazın iqtisadiyyatı ümdə yer tuturdu. İsa Sultanın fəaliyyətinə ciddi maneələr yaradan çar xəfiyyələri onun xalqın mənafeyini müdafiə etmək çağırışı olan məcmuəsini ləğv etmək üçün dəridən-qabıqdan çıxırdılar.

1877-ci ilin aprelində başlanan Rusiya-Türkiyə müharibəsi Tiflisdə də sakitliyi pozdu. Rus ordusu 1877-ci il oktyabrın 15-də Qarsı işğal etdi. Çar Rusiyasının rus və türk dillərini bilən dövlət məmurlarına böyük ehtiyacı vardı. Rusiya istəyirdi ki, Qafqazı həmişə öz tabeliyində saxlasın. Belə bir zamanda İsa Sultan Şahtaxtinski səfərbərliyə alındı və 1877-ci ilin axırında Qarsa göndərildi. Onun həyatının 16 ili Qarsla bağlı olub. Rusiya hökuməti 1878-ci il yanvarın 1-də İsa Sultanı Qars vilayəti rəisi yanında xüsusi tapşırıqlar üzrə məmur vəzifəsinə təyin etdi.

1879-cu il yanvarın 1-dən etibarən o, bu sahədə baş məmur təyin edilir. 1879-cu ilin dekabrında Rusiya ilə Osmanlı imperiyası arasında gedən danışıqlarda bəzi məsələləri nizama salmaq üçün İstanbul şəhərinə üç ay ezamiyyətə göndərilən İsa Sultan bu müddətdə uşaqlıqdan görmək istədiyi bu qədim şəhərlə yaxından tanış olur. Axı o, hər şeydən əvvəl qələm sahibi idi. 1880-ci ildə Ərzurumda da olmuşdu. O, bu vaxtlar Qars hərbi qubernatorluğunun mülki işlər üzrə dəftərxanasının rəisi idi.

İsa Sultan Şahtaxtinski Rusiya imperiyası ilə Osmanlı

dövləti arasında münasibətlərin nizama salınmasında oynadığı əhəmiyyətli diplomatik fəaliyyətinə görə Türkiyə hökuməti onu üçüncü dərəcəli "Məcidiyyə" ordeni ilə təltif etmişdi. Axı, İsa Sultan Rusiya məmuru olsa da, türk balası idi.

İsa Sultan Şahtaxtinskinin diplomatik fəaliyyətinə görə İran dövləti ona "Şiri-Xurşid" ("Şir və Günəş") ordeninə layiq görmüşdü. Rusiya dövlətinin də bir çox ordenlərinin sahibi olmuşdu. Hətta ona mükafat olaraq brilyant üzük də Qafqaz canişini tərəfindən təqdim edilmişdi. 1883-cü ilin aprel ayında o, Qars vilayəti hərbi qubernatorunun dəftərxana rəisi təyin olunur.

İsa Sultan hətta Qarsda da ədəbi, elmi fəaliyyətindən əl çəkmir. Burada rus dilində "Qars" qəzetini nəşr etdirir.

1885-ci ildə Tiflisdə yaşayan və istefada olan kapitan Allahyar Ağalarovun qızı Səkinə xanımla evlənir. Tiflisdə Səkinə xanımı hamı "Sofiya xanım" deyə çağırırdı. Ağalarovlar əsasən Tiflisdə, Gəncədə və Bakıda yaşayırdılar. Bu nəsil də Azərbaycan tarixində məşhur şəxsiyyətlər yetirib. Səkinə (Sofiya) xanım rus və Azərbaycan dillərində savadlı idi. Bu qadın Mirzə Cəlillə Həmidə xanımın da ailə qurmasına səbəb olmuşdu. Sonralar Mirzə Cəlil özünün sələfi olan İsa Sultanın ailəsindən maddi, mənəvi köməyini əsirgəməmişdi.

İsa Sultan ilə Sofiya xanımın nikahından 6 övlad dünyaya gəlib. Tiflisdə arxivdə işləyərkən onun əmək (formulyar) kitabçasında qızlarının adlarına rast gəldik. Amma nədənsə beşinin adı yazılıb. Leyla Banu (bəyim deməkdir). (Doğulma tarixi 13 yanvar, 1886), Nazlı Banu (25 sentyabr, 1887), Fatma Banu (3 may, 1889), Adilə Banu (4 aprel, 1891), Cəmilə Banu (5 fevral, 1893). Burada bir məsələni deyək ki, Adilə bəyimin doğum tarixi sovet hakimiyyəti illərində olan nəşrlərdə 17 aprel 1894-cü il kimi göstərilib. Yəqin ki, axtarışlar həqiqəti deyəcək.

Gənc ailəni kədər tez tapdı. İsa Sultan Şahtaxtinski 1894-

cü il oktyabrın 17-də 43 yaşında Tiflisdə vəfat etdi. O, Səkinə xanımla 9 il ailə sevincində yaşaya bildi. Qarsın sərt dağ iqlimi onun səhhətinə pis təsir etsə də, çar hökuməti İsa Sultanın işdən ayrılıb müharibəyə getməsinə imkan vermədi.

Səkinə (Sofiya) xanım ərini Qarsdan Tiflisə ağır xəstə halında gətirdi. Bəzən onun vəfat məkanını Qarsda yazırlar. Bu, doğru deyil. Çünki o vaxtlar çox populyar "Kavkaz" qəzeti verdiyi nekroloqda onun haqqında müfəssəl məlumat yazıb. Qəzetin yazdığına görə dəfn mərasimi oktyabrın 21-də olub. Çünki onun ata-anasının, qardaşının (Əli ağanın) və digər qohumlarının gəlişini gözləmişdilər. O biri qardaşı Əbülfət ağa Rusiya ordusunda hərbi xidmətdə idi. İsa Sultanın qardaşları Əbülfət ağa və Əliağa Rusiya ordusunun polkovniki olublar. Onu şəhərin müsəlman qəbiristanlığında torpağa tapşırmışdılar. Bu haqda "Kavkaz" və "Novoye obozreniye" qəzetləri ətraflı məlumat vermişdilər. Qəzetlər yazırdılar ki, Zaqafqaziya Şeyxülislamı cənazə üzərində ölü namazı qılıb, ağsaçlı Qafqaz müftisi Hüseyn əfəndi Qayıbov göz yaşları içində hamını təsirləndirən nitq söyləyib.

Bu isə İsa Sultanın böyük vətənpərvər və şəxsiyyət olmasından xəbər verirdi. O, 1891-ci ildə kollegiya müşaviri mülki rütbəsini almışdı. Bu isə Rusiya ordusunda polkovnik rütbəsi demək idi. Atanın ölümündən sonra gənc ana olmazın əziyyətlərini çəkməyə başladı. Səkinə (Sofiya) xanım təkbaşına 6 qızı böyütmək və oxutmaq üçün bütün iradəsi ilə həyatın çətinliklərinə sinə gərdi. O, Naxçıvanın kəndlərində olan torpaq sahələrini satdı. Bununla bağlı arxiv sənədləri də var. Elə indinin özündə də "Səhnə xanımın yeri (torpağı)" adı Cəhridə işlənməkdədir. O, qızı Leyla bəyimi təhsil üçün Cenevrəyə göndərdi. Lakin Leyla xanım İsveçrədə xəstələnib vəfat etdi. Bu münasibətlə hətta satirik jurnal olan "Molla Nəsrəddin" kədər dolu nekroloq dərc etdi (1908-ci il 52-ci say). Bu nekroloqu böyük ədib, Şahtaxtinskilər nəslinin ən sədaqətli dost-

larından biri, ürəyi vətən qüssəsilə dolu Mirzə Cəlil yazmışdı.

Hər dəfə Tbilisiyə yolum düşəndə İsa Sultanın varislərinin taleyi məni çox maraqlandırıb. Hələlikdə Nazlı bəyimdən başqa, o birilər haqqında məlumat öyrənmək mümkün olmayıb. Azərbaycan MTN-nin arxivində elmi axtarışlar zamanı İsa Sultanın həkim qızı Adilə xanımın həbs kağızını tapa bildik. 1937-ci il 4 sentyabrda Bakıda yaşayan Adilə xanımı həbs ediblər. O sənəddə yazılıb ki, Tiflis sakini olan Adilə xanımın əri əksinqilabçı olduğu üçün evində axtarış aparılsın. Hətta onun və əri Qulam Həmid oğlu Sultanovun yaşadığı ünvan da göstərilib. Bakı, Kooperativ küçəsi, 7. Dindirilmə vaxtı məşhur həkim ginekoloq babalarına məxsus qürurla günahsız olduğunu etiraf edib.

Bakıda Bayıl həbsxanasında saxlanılan bu ziyalı qadını nahaqdan çox incidiblər. Onun həbsi haqqında yazılan arayışda göstərilir ki, 25 iyun 1938-ci ildə Adilə xanımın əri, millətçi, əksinqilabçı, terrorçu Qulam Sultanov Azərbaycan NKVD-si tərəfindən həbs olunub. Onların 18 yaşlı oğulları Rauf Tiflisdə, Səkinə (Sofiya) xanımın yanında yaşayır. Axtarış zamanı evdə olan fotoşəkillərin, kitabların müsadirəsini də yazıblar. Və bu kağıza DTK-nın 8-ci şöbəsinin rəisi leytenant Roqan imza atıb. Professor Adilə xanım ömrünün sonlarını Tiflisdə yaşayıb. Vətənpərvər bir şəxsiyyətin - İsa Sultan Şahtaxtinskinin ailəsindən, övladlarından qisas alırdılar. Müstəntiqlərin hamısı ermənilər olub. Bəs, görəsən, İsa Sultanın digər övladlarının taleyi necə olub? Bu barədə isə ancaq axtarışlar çox həqiqətləri üzə çıxarda bilər. Bu gün İsa Sultanın məzarı qalmasa da, adı dillər əzbəridir. Naxçıvanda İsa Sultan deyəndə, hamı fəxrlə, səmimiyyətlə gülümsəyir. II İsa Sultan Şahtaxtinskinin adı bu gün də ehtiramla xatırlanıb yad edilir.

## ALEKSİS ŞAHTAXTİNSKİ: "ONLARDAN BİRİ OLDUĞUM ÜÇÜN FƏXR EDİRƏM"

Şahtaxtinskilər bolşevik inqilabından sonra dünyanın müxtəlif ölkələrinə köçüb getmişlər. Naxçıvan xanlığının sonralar da çar Rusiyasının ordusunun məşhur hərbçilərindən olan I İsa Sultanın oğlanlarından biri də Məmmədqulu Sultan olub. Elə "sultan" titulundan görünür ki, Məmmədqulu bəy də dövrünün hərbçisi olub. Onun oğlu Əli ağanın Mustafa bəy, Behbud ağa, Əhməd bəy və Məhəmməd ağa adında övladları olub. Əslində Şahtaxtinskilərin də ailələri çoxuşaqlı olub, ancaq sənədlər itdiyindən, yaxud arxivlərə dağıdıldığından hamısının adını yaza bilmirik.

Tariximizdə mühüm diplomatik işlər görən Behbud ağa haqqında xeyli kitablar yazılıb. Onun Fransaya mühacirət edən qardaşı Məhəmməd ağa (Məmməd də yazılır) haqqında yalnız son illərdə geniş məlumat ala bildik.

Azərbaycan Demokratik Respublikasının qurucularından və üzvlərindən biri olan Məhəmməd ağa həm də hökumət üzvü idi. Məhəmməd ağa Əli ağa oğlu Şahtaxtinski XIX əsrin 80-ci illərində Şahtaxtı kəndində anadan olub. İlk təhsilini Naxçıvanda və İrəvanda alıb. Sonralar Tiflisdə və Sankt-Peterburqda təhsilini davam etdirən Məhəmməd ağa Zaqafqaziya dəmir yolunun rəisi vəzifəsində işləyib. 1918-1920-ci illərdə müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin dəmir yolunun rəisi kimi çox əhəmiyyətli bir vəzifənin sahibi olub.

Həmin vaxtlar sovet hökumətində yüksək vəzifə tutan qardaşı Behbud ağanın buraxılış kağızı ilə öz şəxsi qatarında ailəsi və anası Nisə xanımla birlikdə İstanbula gəlir, sonralar isə Fransaya yollanır. Tale onu parisli edir. Ömür boyu vətən həsrəti çəkən Məhəmməd bəy 1970-ci ildə Parisdə, qürbətdə vəfat edir. Anası Nisə xanım da Parisdə dünyadan köçüb.

Məhəmməd bəyin qızı Firuzə bəyim 1912-ci ildə Bakıda doğulsa da, ömrünü Amerikada yaşamalı olub. Məhəmməd bəyin oğlu Cahangir (Jan) 1928-ci ildə Parisdə doğulub. Sorbonna universitetini filologiya ixtisası üzrə bitirsə də, hərbidəniz zabiti olan Cahangir ağa 1950-1960-cı illərdə Fransada NATO-nun Baş qərargahında buraya daxil olan dövlətlərin büro rəisi kimi fəaliyyət göstərib. 1995-ci ildə vəfat edib. Onu da deyək ki, Cahangir ağaya ulu əcdadlarının vətəni olan Azərbaycana 1986-cı ilədək gəlməyə icazə verməyiblər. Onun bir oğlu və bir qızı olub, onların hər ikisi Parisdə yaşayır.

Cahangir ağanın oğlu Ələsgər (Aleksis) ağa Şahtaxtinski 1967-ci ildə Strasburq şəhərində doğulub. Atası Cahangir Kamal Məhəmməd ağa oğlu hərbçi və professor, anası madam Marqarita Kovalenko poliqlot olmuşdur. Yeri gəlmişkən, anası Livanda fransız ailəsində anadan olmuşdur. Onun da babaları Rusiyadan mühacirət etmişlər.

Aleksis (Ələsgər ağa) Şahtaxtinski orta məktəbi əla qiymətlərlə başa vurub diplomatiya üzrə ali təhsil almışdır. 1993-cü ildən diplomat kimi fəaliyyətə başlayan Aleksis Xorvatiyanın Zaqreb şəhərində Fransa səfirliyində birinci katib işləyib. Yuqoslaviyada müharibə dövründə NATO-nun qurumlarında çalışan Aleksis, həm də Moskvada bu təşkilatın təmsilçisi olub. 1997-ci ildən 1999-cu ilədək, Rusiya ilə NATO arasında saziş bağlanandan sonra məlumat bürosunun rəhbəri olmuşdur. Sonralar Brüsseldə NATO-nun Baş katibinin mətbuat katibi, Belarusiyada Fransa səfirliyində müşavir işləyən Aleksis bu illərdə həm də Diplomatiya Akademiyasını bitirmişdir. 2007-ci ildən ATƏT-in Bakı ofisində fəaliyyət göstərir.

Olduqca vətənpərvər bir insan olan Aleksis ulu babalarının vətəni Şərur mahalını, oradakı Şahtaxtı kəndini və Naxçıvanı görmək üçün hansı vasitələrə əl atmayıb. Özü

verdiyi müsahibələrdə bu haqda ətraflı söhbət açıb. 1986-cı ildə atası ilə Bakıya gələndə 19 yaşı vardı. Çox sevdiyi Naxçıvana isə 1991-ci ildə gələ bildi. Baba yurdu Naxçıvanı, Şahtaxtını görmək üçün həyatını təhlükəyə atmışdı. Bu risq idi. Amma Aleksisdə olan vətən həsrəti, sevgisi o qədər güclüdür ki, o, bütün qadağa və maneələri aşa bilmişdi. Buna onun qanında irsən daşıdığı cəsarət, qorxmazlıq kömək etmişdi. Aleksis iti ağıla, möhkəm yaddaşa və fitri istedada malik insanlardandır. Ona yaxın dildə danışa bilən həmyerlimiz 6 dili mükəmməl bilir.

Hər dəfə Naxçıvana gələndə, hökmən ulu babası Əli bəyin yaşadığı evə baş çəkir. Şahtaxtı kəndindəki bu ev ona bəlkə də dünyanın ən gözəl saraylarından daha füsunkar görünür. Çünki bu evdə onun yeddi babadan da yuxarı ulu əcdadlarının ruhları dolaşır. Aleksis qürbətdə yaşadığından Naxçıvanın hər qarış torpağını müqəddəsdən-müqəddəs bilir. Hər yerdə fəxrlə deyir: "Əlbəttə ki, mən azərbaycanlıyam, daha dəqiq naxçıvanlıyam, lap dəqiq desək, Kəngərli rayonunun Şahtaxtı kəndindənəm". Onun babasının qardaşlarından biri Əhməd bəy olub. İxtisasca neft mühəndisi olan Əhməd bəy ali təhsilini İsveçdə almışdı. Sonralar Azərbaycana qayıdaraq Bakıda işləyib. 1929-cu ilədək qardaşı Məhəmməd ağa ilə əlaqə saxlaya bilirmiş. Əlbəttə, ancaq məktublaşmaqla. Sonradan həbs edilib və 15 il sürgündə olub. Azərbaycan MTN-nin arxivində onunla bağlı sənədlər var. Hətta orada fotoşəklini də əldə etdik.

Bu günlərdə Aleksis Şahtaxtinski yenə də Naxçıvana gəlmişdi. Rəsmi səfərdə olsa da, vaxt tapıb baba yurdu ilə də görüşə getdi. Naxçıvanda gedən abadlıq, quruculuq və tikinti işlərinə ürəkdən sevinən Aleksis naxçıvanlıları ürəkdən alqışlayır və deyir: "Onlardan biri olduğum üçün fəxr edirəm".

## POLKOVNİK ƏBÜLFƏT AĞANIN KEÇDİYİ HƏRBİ YOL GƏNCLİYİMİZƏ NÜMUNƏDİR

1907-ci ildə Qafqaz özünün ən məşhur generallarından birini, Naxçıvanskilərin kürəkəni Maqsud Əlixanovu itirdi. Daşnaklar onu faciəli surətdə məhv etdilər. Onun sədaqətli həyat yoldaşı, general-mayor II Kalbalı xan Naxçıvanskinin qızı Zərintac bəyim hökumətdən tələb etdi ki, onu dəfn etmək üçün doğulduğu Xunzaxa aparmağa icazə versinlər. Onu yola salanlar arasında Əbülfət ağa və Balabəyim Şahtaxtinskilər də Tiflis dəmiryol vağzalında kədərlə dayanmışdılar. Artıq qətiyyətli generallar ağılsız, kütbeyin rəqiblərin ucbatından məhv edilirdilər. Bir neçə il əvvəl general Qryaznevi də beləcə öldürdülər. Aradan 6 il keçməmiş populyar "Qafqaz" ("Kavkaz") qəzetində Balabəyim xanımla oğlu Abbas ağa dərin kədərlə yaxın qohumlarına, dostlarına bildirirdilər ki, polkovnik Əbülfət ağa qəflətən Kutaisidə vəfat edib. Xəbərdarlıq nekroloqu martın 13-də verilmişdi. Elə oradaca xəbər verirdilər ki, dəfn mərasimi mərhumun vəsiyyətinə görə martın 20-də doğulduğu Şahtaxtı kəndində olacaqdır. Tiflisin nücəba insanları, məşhur hərbçiləri, nurlu ziyalıları və polkovnikin həmyerliləri - naxçıvanlılar perronda dayanıb Kutaisidən gələn zirehli qatarı gözləyirdilər.

Həmin nekroloqun dərc olunduğu "Kavkaz" (rusca) qəzetini 94 ildən sonra Tiflisin Mərkəzi Kitabxanasında tapıb oxuyuram. Hər şeyi anlamağa çalışıram. Öz hərbi hünəri ilə tarixlərə iz qoymuş, elmi ilə müasirlərini heyran edən polkovnik Əbülfət ağanın vətənə son səfərini damla-damla topladığım xatirələrin işığında xatırlayıram. Heç ağlıma gəlməzdi ki, 1980-ci ildə fəaliyyəti ilə maraqlandığım bu cəsur polkovnikin həyat səhifələrini Tiflisdə, Kutaisidə, Qoridə vərəqləməli olacağam. Çox qəribədir ki, qəhrəman naxçıvanlıların axtarışını bəzən məqsədli şəkildə aparmıram. Maraqlı elmi axtarışların çox gərgin vaxtında digər bir

qəhrəmana aid sənədlər müəllifi özü axtarıb tapır. Həmin andaca vaxtı ilə ya yazdığım, ya da yaddaşıma köçürdüyüm xatirələr köməyimə gəlir.

Əbülfət ağa haqqında ilk dəfə hələ uşaqlıq illərində atamdan eşitmişdim. Sonralar tələbə olanda yenə atam dedi ki, tarixin elə səhifələri var ki, onları bilmirsiniz. Amma həqiqət o bilmədiklərinizdədir.

1980-ci ildə atam məni Şahtaxtı kəndinə aparıb Əbülfət ağanın məzarını da göstərmişdi. İndi bu məzar lap tənha qalıb.

Əbülfət ağa haqqında ASE-nin 1987-ci il nəşrində də məlumat verilib. Ancaq bütün məlumatlar yığcam və sovet ideologiyasına uyğundur. Bu cəsur polkovnik Şərur mahalının ən zəngin zadəganlarından biri olan Nəcəfqulu ağanın ailəsində 1858-ci ilin oktyabrında Şahtaxtı kəndində doğulub. Onun atasının Naxçıvan və İrəvan şəhərlərində də mülkləri vardı. Ona görə də digər qardaşlarının doğum sənədlərində İrəvan və Naxçıvan yazılıb. Əbülfət ağanın təhsil illəri Naxçıvan-İrəvan-Tiflis-Peterburq-Moskva-Heydelberq şəhərlərində keçmişdi. 1883-cü ildə onu hərbi iş daha çox maraqlandırdığından yunker məktəbinə imtahan vermiş və əla qiymətlərlə məktəbə daxil olmuşdu. Onun oxuduğu hərbi məktəb Peterburqda yerləşirdi. Hərbi məktəbi bitirəndən sonra həyatını ordu ilə bağlayan 1904-1905-ci illərdə rus-yapon müharibəsində batalyon komandiri kimi vuruşmuş, məşhur Port-Artur döyüşlərində bilavasitə iştirak etmişdir.

1912-ci ilə aid olan arxiv sənədləri onun polkovnik rütbəsində olduğunu xəbər verir. Həmin ildə Rusiya tərəfindən İsveçrəyə göndərilmişdi ki, orada hərbi manevrləri müşahidə etsin. Əbülfət ağa dünya şöhrətli alim-nasir Məhəmməd ağa Şahtaxtlının doğmaca əmisi oğludur və onun kürəkənidir. Məhəmməd ağanın qızı Balabəyim xanımla izdivacından Abbas, Sadıq və Nəcəf adlı oğulları dünyaya gəlmişdi. Am-

ma hamısını Sovet hakimiyyəti illərində güllələdilər. Atanın adını ensiklopediyalara salırdılar (əlbəttə, elə-belə), balalarını isə məhv edirdilər. Arxiv sənədlərində Əbülfət ağanın Qonçabəyim adlı bir qızının da olduğunu yazırlar. Fikrimiz var ki, onun Tiflisdə yaşayan nəticələrini axtarıb tapaq. Çünki onlar Əbülfət ağanın 1879-cu ildən ömrünün sonuna kimi sinəsində gəzdirdiyi 11,5x17,5 sm ölçülü və qızılla bəzədilmiş "Quran"ını Azərbaycan Milli Tarix Muzeyinə təqdim ediblər. Onlar indi Mdivani familiyasını daşıyırlar. Polkovnikin şəxsi Quranı haqqında yazan İrina Kostinanın məlumatından aşkar olur ki, Qonça xanımın saxladığı bu Quranı Əbülfət ağa iştirak etdiyi hərbi döyüşlərdə həmişə sinəsində gəzdirib. Biz çalışacağıq ki, Qonca xanım haqqında da ətraflı məlumat öyrənək. Onun şəxsi arxivində və albomunda xeyli sənədlər və fotoşəkillər var.

Polkovnik Əbülfət ağa biz düşündüyümüzdən də məşhur hərbçi olub. Əgər belə olmasaydı, Kutaisidən zirehli qatar onu Qafqaz canişinin göstərişi əsasında Şahtaxtı kəndinə gətirməzdi. Onun dəfni haqqında ətraflı yazılmadığından bunu geniş təsvir etmək istərdik. Şahtaxtı kəndinin ağsaqqallarından Əli Hacı Məmmədhüseyn oğlu və sonralar Böyükdüz kəndində yaşayan Qasım Əli oğlu bu dəfnin canlı iştirakçısı və şahidi olmuşdular. Vaxtı ilə onlardan öyrəndiklərimi yazmaq maraqlı olar. Zirehli qatar Şahtaxtına gündüz saat 11-də gəlib yetişib. Dəmiryol vağzalında, İmport deyilən tarixi binanın önündə toplaşan insanların sayı-hesabı yox idi. İrəvandan, Naxçıvandan da çoxlu qonaqlar gəlmişdi. Zirehli qatarı kazaklar (Rusiya ordusunun əsgərləri müəllif) qoruyurdular. Hava soyuq idi. Rekviyemin sədaları altında cənazəni top lafetinin üstünə qoydular. Atlas balışlara onun aldığı hərbi mükafatları düzmüşdülər. Hətta qılıncı da yanındaydı. Kortej vağzaldan kəndə tərəf irəliləməyə başladı. Kədərli musiqi çalırdılar. Hamısı hərbçilər idi.

Məhəmməd ağa Şahtaxtinski də cənazənin yanında addımlayırdı. Əbülfət ağanı Şahtaxtinskilərin yolun yaxınlığında olan ailə sərdabəsində dəfn etməyə gətirirdilər. Özü belə vəsiyyət etmişdi. Burada onun ulu babaları Şahsultan, onun oğlu I İsa Sultan, oğlanlarından Məmmədtağı Sultan, Hacı Vəli ağa və digərləri dəfn olunmuşdular. Onu torpağa tapşırandan sonra yaylım atəşləri açdılar və nitq söyləyənlər də oldu. Balabəyim xanım və üç oğlu bir müddət Şahtaxtı kəndində qaldılar. Çünki İbrahim ağa Şahtaxtinski əmisi oğlu Əbülfət ağaya el adətincə matəm mərasimi saxladı.

Sovet hakimiyyəti illərində qızıl axtaranlar o sərdabəni dağıdıb ələk-vələk edirdilər. Hətta buldozerə də verdilər bir hissəsini. Yol çəkdilər ki, gələcək nəsillərin bu məşhur Şahtaxtinskilərdən xəbəri olmasın. Amma Allah həmin sərdabədən bir məzarı bu günədək saxlayıb. Əbülfət ağa nəhəng gövdəli olduğundan məzar da böyükdür. Məzarı nə vaxtsa tar-mar ediblər, qızıl-gümüş axtarıblar. Nə yaxşı ki, tamam yox etməyiblər. Bəlkə də qürbətdə ikən doğulduğu kənddə babalarının yanında dəfn olunmağı vəsiyyət etdiyindəndir ki, hərbçinin məzarını zaman indiyədək Qıvraqdan Şahtaxtı gömrük keçid məntəqəsinə gedən yolun kənarında qoruyub saxlayıb. Tənha, kədərli görkəmli bu məzarda uyuyan polkovnik Əbülfət ağanın keçdiyi elmi və hərbi yolu, bir də vətən təəssübü bütün yüzilliklərdə gəncliyimizə nümunədir.

## ELM KORİFEYLƏRİ - ŞAHTAXTİNSKİLƏR

Azərbaycanın hərb və diplomatiya tarixində böyük zəfərləri tarixə yazmış Şahtaxtinskilər həm də elm fədailəri olmuşlar. Elə indinin özündə də onların elmi korifeyliyi davam etməkdədir. Tarixi keçmişimizi əks etdirən salnamələri, yazılmış elmi monoqrafiyaları və arxiv sənədlərini öyrəndikcə Şahtaxtinskilər haqqında yeni-yeni maraqlı faktlarla rastlaşırıq.

I İsa Sultanın hərbçi varislərindən biri olan Məmmədtağı Sultan öz dövrünün zəngin zadəganlarından olmuşdur. Ulu babalarından gəlmə həssaslıqla hər bir peşənin və sənətin önündə elm öyrənməyi, bilik almağı olduqca vacib bilən Məmmədtağı Sultan övladlarını Qərbi Avropanın və Rusiyanın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərmişdir. Onun böyük oğlu Məhəmməd ağa Şahtaxtinski (1846-1931) haqqında axır illərdə xeyli elmi monoqrafiyalar yazılmışdır. 1920-ci ilədək Şahtaxtinski soyadını daşıyan böyük alim Sovet hakimiyyəti illərində "Şahtaxtlı" familiyasını işlətmişdir. Onu da qeyd edək ki, bu alimin şərəfinə əmi uşaqlarından da Məhəmməd adını daşıyanlar olmuşdur. Məsələn, Behbud ağa Şahtaxtinskinin qardaşı Məhəmməd ağa (Aleksis Şahtaxtinskinin babası) da 1918-1920-ci illərdə tanınmış şəxsiyyət olmuşdur.

Biz burada Məhəmmədtağı Sultanın digər oğlu Baxşəli ağa və onun varislərinin haqqında danışmaq istəyirik.

Böyük ensiklopedik alim Əziz Şərif "Molla Nəsrəddin necə yarandı" kitabında Naxçıvanın maarifçi və demokratları arasında Baxşəli ağanın da adını dönə-dönə ehtiramla çəkmiş, onu ictimai həyata tənqidi münasibət bəsləyən, qa-

baqcıl ideyaların təbliğatçısı, rus və Qərbi Avropa ədəbiyyatı və mədəniyyətinə bələd olan şəxsiyyət kimi xarakterizə etmişdir. Alim yazır ki, bir zaman Culfa gömrükxanasında işləmiş, 1907-1911-ci illərdə Səttarxan azadlıq hərəkatında fəal iştirak etmiş və 1918-ci ildə irticaçılar tərəfindən Nehrəm kəndində öldürülmüşdür. Baxşəli ağa Şahtaxtinski Şahtaxtı kəndində doğulmuş, əsasən Naxçıvan şəhərində yaşamışdır. Onun şəxsi işi əlimizdə olmadığından harada təhsil almasından hələlikdə xəbərsizik. Ancaq belə məlumdur ki, o, bütün həyatı boyu Şahtaxtı və Culfa gömrükxanasında işləmişdir. Hətta 1897-ci ildə Həştərxan şəhərində gömrükxanada da işləmişdir. XIX yüzillikdə Şahtaxtı kəndində tikilmiş böyük bir bina - gömrükxana son illərə qədər qalırdı. Şahtaxtinskilərin malikanələrinin lap yaxınlığında tikilmişdi. Şərur mahalındakı ən böyük gömrükxana sayılırdı. Baxşəli ağa və onun bacısı Pəricahan xanımın həyat yoldaşı Əsgər ağa Kəngərli də bu sistemin layiqli işçiləri olmuşlar. Baxşəli ağa özünün ən yaxın qohumu, əmisi Hacı Vəli ağanın qızı Sona xanımla ailə qurmuşdur. Onların bu nikahından Nemətulla ağa (1885-1954), Ətaulla ağa (1904-1974) və Həbibulla ağa (1900-1986), Tarixçi alim Əli Əliyevin yazdığına görə Hüseyn ağa Peterburq Universitetinin hüquq fakültəsində oxumuş və azadlıq ideyalarını Şahtaxtı kəndinə də gətirmişdir. Baxşəli ağanın faciəli ölümündən sonra Sona xanım övladlarının ali təhsil alması üçün bütün əziyyətlərə, təqiblərə dözmüşdür. Elə bunun bəhrəsidir ki, bu gün Azərbaycan həmin elm korifeyləri ilə fəxr edir. Nemətulla ağa Bəhmən Mirzə Qacarın Çiçək xanımdan olan qızı Nurcahan xanımın kürəkəni olmuşdur. Şahtaxtinskilərlə Qacarların qohumluğu bu ailə nikahından başlanır. Onu deyək ki,

Nurcahan xanım Tiflisdə işləyən Mustafa bəy Ağayevlə ailə qurmuş və Zəhra xanım, Ziba xanım, Leyla xanım, Çingiz və Bəhram adlı övladları olmuşdur.

Onların qızı Zəhra xanım (1891, Xankəndi-1977, Bakı) biologiya elmləri doktoru (1953), professor (1954), Azərbaycanın əməkdar elm xadimi (1960) fəxri adlarını daşımışdır. Onun Nemətulla ağa Şahtaxtinski ilə nikahından Toğrul (1925) və Teymur (1929-1992) adlı oğlanları dünyaya gəlmişdir.

Toğrul Şahtaxtinski - məşhur kimyaçı akademik, 500-dən çox elmi əsərin, 11 monoqrafiyanın, 130 ixtira və patentin müəllifidir. Mühüm xidmətlərinə görə "Şərəf nişanı" və "Xalqlar dostluğu" ordenləri ilə təltif edilmişdir. Hazırda AMEA-nın Baş akademik katibidir.

Zəhra xanımın bacısı Ziba xanım (1905.26.04. Bakı) Ətaulla ağa Şahtaxtinski ilə ailə qurmuş, Baxşəli ağa (1930-1992) və Aza (1925) adlı övladları olmuşdur.

Zəhra xanımın digər bacısı Leyla xanım (25.12.1906-5.03.1995) Həbibulla ağa Şahtaxtinski ilə ailə qurmuşdur.

Həbibulla ağa Azərbaycanın ən məşhur kimyaçı akademiklərindən olmuşdur. Analitik və qeyri-üzvi kimya üzrə dünyada məşhur olan alim 1900-cü ilin 9 sentyabrında Şahtaxtı kəndində doğulmuş və 1926-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) tibb fakültəsini, 1930-cu ildə isə Azərbaycan Politexnik İnstitutunun kimya-texnologiya fakültəsini bitirmişdir. O, ən qiymətli dərs vəsaitinin ("Miqdari kimyəvi analiz"), 7 monoqrafiya və dərsliyin, 380-dən çox məqalə, həmçinin digər əsərlərin müəllifi olmuşdur. Ömrünün sonuna kimi Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanması işində mühüm xidmətlər göstərmiş və

"Oktyabr inqilabı" ordeni ilə təltif edilmişdir. Həbibulla ağa ilə Leyla xanımın izdivacından bir oğul və 4 qız da Azərbaycanın elm, incəsənət aləmində çox görkəmli şəxsiyyətlər olmuşdur. Onların oğlu Məhəmmədemin (1932) görkəmli fizikdir və AMEA-nın (1989) akademikidir. Azərbaycan Fizika Cəmiyyətinin prezidenti (1991), Avropa-Asiya Fizika Cəmiyyətinin vitse-prezidentidir (1991). Sona xanım Həbibulla ağa qızı (1926) kimya elmləri namizədidir. Onun qızı Naira xanım Şahtaxtinskaya 22 iyun 2007-ci ildən Azərbaycanın Litvada fövqəladə və səlahiyyətli səfiridir.

Həbibulla ağanın qızı Gülnarə xanım (1928) - kimya elmləri namizədidir.

Elmira xanım Həbibulla ağa qızı Şahtaxtinskaya (1930-1996) Azərbaycanın xalq rəssamı olmuşdur (1977).

Bir çox portretlər qalereyasını yaradan Elmira xanım dəzgah rəsmləri və boyakarlıq əsərləri də yaratmışdır. O, 1956-cı ildə V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunu bitirmişdir. Onun rəssam Oqtay Sadıqzadə ilə nikahından oğlu Altay dünyaya gəlmişdir. Altay Sadıqzadə də rəssamdır. O, Nərgiz xanım Paşayeva ilə ailə qurmuşdur.

Həbibulla ağanın Nəzirə adlı qızı (1939) da kimya elmləri namizədidir.

Bütün bu məlumatlardan görünür ki, Baxşəli ağanın faciəli ölümü gələcək varislərin elm öyrənmək yolunda pessimizmə səbəb olmayıb.

Ümumiyyətlə, Şahtaxtinskilərin nəsil şəcərəsini işləyərkən bizə aydın oldu ki, Azərbaycan və onun ayrılmaz bir hissəsi olan Naxçıvan MR Şahtaxtinskilərlə fəxr edə bilər. Hələ bir çox sənədlər MDB arxivlərinin fondlarında tədqiqatçıları gözləməkdədir. O sənədlər əldə olunduqca bizim

bilmədiyimiz bir çox faktlar Şahtaxtinskilərin Azərbaycan tarixində daha böyük işlər gördüklərini aşkar edəcək və həmyerlilərimizi sevindirəcəkdir.

## İBRAHİM AĞA ŞAHTAXTİNSKİ

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Şahtaxtinskilər muzeyinin yaradılması haqqında 9 fevral 2010-cu il tarixli Sərəncamı bir tədqiqatçı kimi məni də ürəkdən sevindirdi. Bu sərəncam tariximizdə böyük xidmətləri olan Şahtaxtinskilərin ensiklopedik irsinin dərindən və hərtərəfli öyrənilməsi üçün dövlətimizin göstərdiyi qayğının bariz nümunəsidir. Gələcək yüzilliklərdə də böyük əks-səda doğuracaq bu məşhur tarixi sərəncam Şahtaxtinskilərə aid MDB ölkələrinin müxtəlif arxivlərində, kitabxanalarında və muzeylərində olan sənədlərin, dərc olunmuş məqalələrin və fotoşəkillərin tapılıb üzə çıxarılması üçün əlverişli bir şərait yaradır. Tarixi əhəmiyyətə malik olan bu sərəncam həm də biz tədqiqatçıları daha ciddi məsuliyyətli axtarışlar aparıb yeni-yeni faktları üzə çıxarmağımızın vacibliyini önə çəkir.

Naxçıvan, Bakı, İrəvan, Tiflis, Həştərxan, Vladiqafqaz, Odessa, Kiyev, Moskva, Sankt-Peterburq, Varşava, Qars və digər şəhərlərdəki arxivlərdə Şahtaxtinskilər haqqında xeyli sənədlər saxlanmaqdadır. Biz tədqiqatçıların ən ümdə vəzifəsi də həmin sənədləri axtarıb tapmaq və doğma Naxçıvana gətirməkdir.

Tarixi sənədləri öyrənəndə İbrahim ağanın adına tez-tez rast gəlirik. Türkiyənin tarixçiləri də yazdıqları monoqrafiyalarda onun adını ehtiramla çəkirlər. 1918-1920-ci illərdə Naxçıvana köməyə gələn türk hərbçiləri sonralar yazdıqları memuarlarda İbrahim ağanın da həmin illərdə göstərdiyi hünərindən və səxavətindən söhbət açmışlar. Həmin tarixi monoqrafiyalardan, memuarlardan və gündəliklərdən yeri gəldikcə istifadə edəcəyik. Azərbaycanın elm tarixində şanlı,

şərəfli səhifə təşkil edən, sönməz bir məşəl kimi parlayan Şahtaxtinskilər nəslinin şəcərəsi də genişdir. Bu köklü, nəcabətli nəsil haqqında az-çox yazılar yazılsa da, lakin sistemli şəkildə tədqiq edilməmişdir. Hələ çar Rusiyası dövründə xidmətlərinə görə bu nəsil Peterburqda xüsusi imtiyaza malik olmuşdur. Ömürlərini xalqın maariflənməsinə, sağlamlığına, hərb sənətinin inkişafına həsr edən və Azərbaycanın xoşbəxt, müstəqil gələcəyi üçün canlarını belə əsirgəməyən bu nəslin nümayəndələrindən unudulanlar da olub. Əslində unutdurublar desək, daha doğru olar.

İbrahim ağa Hacı Vəli ağa oğlu Şahtaxtinski 1881-ci ildə Naxçıvanda, Şahtaxtı kəndində anadan olmuşdur. Onun atası Hacı Vəli ağa Naxçıvanın ən ünlü, yəni sayılıb-seçilən hərbçilərindən biri kimi Rusiya imperiyasında məşhurlaşıb.

Tiflisdə elmi axtarışlar apararkən XIX yüzilliyin tanınmış rəsmi qəzetlərindən olan "Kavkaz" qəzetinin 1856-cı ilə aid 55-ci nömrəsində maraqlı bir siyahıya rast gəldik. Bu, Rusiyanın Qafqazdakı baş komandanı general-adyutant Muravyovun əmri idi. 7 may 1856-cı ildəki bu əmrdə Krım müharibəsində şücaət göstərən naxçıvanlıların da adları vardır. Onlardan biri Hacı Vəli ağa I İsa Sultan oğlu Şahtaxtinskidir. Əmrdə yazılıb ki, kapitan Zeynal Sultanın (adı Zeynalabdin Sultandır-müəllif) qardaşı Hacı Vəli ağa İsa Sultan oğlu müsəlman süvari polkunun bölük komandiri və naibidir. Müharibədə göstərdiyi hünərə görə Rusiya çarı onu qızıl medalla təltif etmişdir. Həmin qızıl medalı rəsmi hərbi geyimlərin yaxasına vurmağa icazə verilirdi. Üstündə "İgidliyə görə" sözləri həkk olunmuşdu. Elə buna görə də müharibədən Naxçıvana qayıdan Hacı Vəli ağa imperiya

hökumətinin rəsmi nümayəndələri tərəfindən hörmət-izzətlə qarşılanır. Və ona Naxçıvanın ən mərkəzində, Bazar çayının üzərində (indiki Came məscidinin yaxınlığında) gözoxşayan mülk tikməyə icazə verilir. Sözarası deyək ki, həmin mülk çox böyük ərazidə yerləşirdi. Hətta ətrafında böyük bağ da vardı. 1920-ci ildən sonra orada Naxçıvanın NKVD-si (enkavede) yerləşirdi. Onun yay evi isə Pionerlər Sarayı olmuşdu. Yeri gəlmişkən, bir maraqlı faktı da demək istəyirik. İbrahim ağanın həyat yoldaşı Zivər xanım Şahtaxtinskaya deyirdi ki, ora bizim yay mülkümüz idi. Əksər ziyafətlər yayda, o mülkün üstündəki meydançada verilərdi. Biz orta məktəbdə təhsil alanda həmin meydançada pionerlər rəqs edirdilər. Hər iki mülk bitişik idi. O mülk indi də qalır. Böyük, memarlıq üslubu ilə fərqlənən nəhəng binanı isə 1972-73-cü illərdə sökdülər. Hacı Vəli ağanın şəhərdə ikinci mülkü indiki respublika kitabxanasının yerində, Bazarçayın üstündə idi. Onun ata-baba kəndi olan Şahtaxtında mərkəzdə, "Ağalıq" deyilən meydanda, axarlı-baxarlı yerdə böyük mülkü vardı. Həyətindəki bağın bir hissəsi indi də qalmaqdadır. Şahtaxtinskilərin böyük dövlət imtiyazları olduğundan onlar yaşayan əraziyə indi də "Ağalıq yeri" deyirlər. Həmin mülkün bir hissəsi 1920-ci ildən sonra məktəbə çevrilmiş, XX yüzilliyin axırlarında sökülmüşdür.

İbrahim ağanın atası Hacı Vəli ağa dövrünün maarifpərvər ziyalılarından olub. Varidatının xeyli hissəsini Şahtaxtı kəndindəki məktəbə xərcləyib. Biz Naxçıvan maarifinin tarixini səhifələsək, Şahtaxtı məktəbinin o illərdə məşhur təhsil ocağı olduğunu görərik. Hacı Vəli ağanın adını Naxçıvan ziyalılarının, yazıçılarının adları ilə bağlı sənədlərdə tez-tez oxumaq mümkündür. O, Şahtaxtinskilərin başbiləni və

ağsaqqalı sayılıb. Çünki bu nəsildən olanların Avropanın, Rusiyanın ən nüfuzlu zadəgan gimnaziyalarında, universitetlərində təhsil almalarına himayədarlıq etmişdir. Hələlikdə tapdığımız sənədlərdə onun aşağıdakı övladlarının adı qeyd edilib (deyilənə görə bu siyahı tam deyil): İbrahim ağa, Əliqulu ağa, Kərim ağa, Uribanu xanım, Səkinə xanım, Sona xanım və Heydər ağa.

Sənədlərin dili ilə desək, Əliqulu ağa rus ordusunun mayoru olub. Varisləri Naxçıvandan Qaxa sürgün ediliblər. Onlarla əlaqə yarada bilmişik. İndi Bakıda, Moskvada və Bərdədə yaşayırlar. Əliqulu ağanın iki oğlu Çingiz ağa və İlyas ağa məşhur Çanaqqala döyüşlərinin qazilərindən olub.

İbrahim ağanın şəxsi işini hələlik tapa bilmədiyimizdən onun təhsil illəri haqqında ətraflı heç nə deyə bilmirik. Təkcə o məlumdur ki, 1913-1914-cü illərdə Bakıda, Suraxanıda jandarm idarəsində polis işləyib. Bu geyimdə şəkli də var.

Hacı Vəli ağa 1911-ci ildə vəfat etdiyindən (arxiv sənədinə görə) onun oğlanları Kərim ağa, Əliqulu ağa Şahtaxtı kəndində yaşamalı olurlar. Heydər ağa isə Qarsda, Sürmədə polis işləyib. Gənc ikən qəzaya düşüb həlak olub. Onun Nazlı xanım (əsl adı Zeynəbağa xanım) Kəngərlidən

Oxucuların marağı üçün deyək ki, görkəmli akademik Həbibulla Şahtaxtinski İbrahim ağanın bacısı Sona xanımın oğludur. Sona xanımın həyat yoldaşı isə əmisi oğlu Baxşəli ağa olmuşdur. Elə görkəmli alim Məhəmməd ağa Şahtaxtinski də İbrahim ağanın doğmaca əmisi oğludur. İbrahim ağanın anası Fatma xanım Şərur mahalının Aşağı Aralıq kəndində yaşayan Seyidbəylilərdəndir. Öz vəsiyyətinə görə həmin kənddə məscidin yanında dəfn olunmuşdur.

1915-ci ildən sonra Naxçıvana qayıdan İbrahim ağa

1918-ci ildə Zivər xanım Rzabəyli ilə ailə qurur. Onun atası qarxunlu Hacı Ağa da 1920-ci ildən sonra sürgün edilib. Bu izdivacdan onların beş övladı - Böyükağa, İsa Sultan, Kərimağa, Kamil ağa və uşaqkən vəfat edən digər bir oğlu dünyaya gəlib. İbrahim ağanın 1929-cu ildə doğulan oğlu Kamil ağa hazırda Naxçıvan şəhərində yaşayır. Uzun illər Kənd Təsərrüfatı Nazirliyində işləyib, indi təqaüddədir. Şahtaxtinskilərin şəcərələrinin hazırlanmasında Zivər xanımın, onların ailəvi dostları Əziz Şərifin və Kamil ağanın köməkləri olub. Şəcərəni akademik İsa Həbibbəyli ilə birlikdə işləmişik. Uzun illərin axtarışlarının bəhrəsi olan şəcərə artıq nəşr olunub.

İbrahim ağanın 1920-ci ildən sonrakı taleyi yaxşı, sonralar isə acınacaqlı olmuşdur. Əvvəlcə onu deyək ki, İbrahim ağa 1918-1920-ci illərdə Naxçıvanın, o cümlədən Şərur mahalının fəal müdafiəçisi olmuşdur. Həmin illərdə Şahtaxtı kəndi mühüm geosiyasi-strateji əhəmiyyət kəsb etdiyindən daşnakların hədəfində idi. Bir növ döyüşlərin mərkəzinə çevrilmişdi. Naxçıvanın köməyinə gələn türk qoşunları Şahtaxtı kəndində qərargah yaratmışdılar. Bu haqda türk hərbçilərinin maraqlı xatirələri də işıq üzü görüb. Məsələn, məşhur türk generalı Veysəl Ünüvar yazdığı kitabında onu hörmətlə xatırlamışdır: "Saat 13:30-da Araz körpüsünü keçdik və şahtaxtılıların səmimiyyəti ilə qarşılandıq. Buranın ziyalılarından İbrahim ağa hamı kimi bizi də qonaq etdi. 1918-ci ilin yazında tanıdığım İbrahim ağaya Qafqazın ən iri adamı deyərdilər. Kommunist Behbud Şahtaxtinskinin qohumu və bölgənin sayılan varlılarından idi. (General Veysəl Ünüvar" Naxçıvan: Təlatüm və burulğanlar (1920-1921), Naxçıvan-2006, səh. 15)

Digər kitablarda, arxiv sənədlərində və çap edilən gündəliklərdə də İbrahim ağanın vətənpərvərliyindən müəlliflər ürəkdolusu söhbət açırlar.

1920-ci ildən sonra türk dostlarının məsləhəti ilə Naxçıvanda İnqilab Komitəsinin sədri təyin olunan İbrahim ağa sonralar ictimai təminat nazirinin müavini işləyib. Ancaq 1926-cı ildən sonra təqib edilib. Mülkləri müsadirə olunub. Özünü isə həbs edib Tiflisə-Metex qalasına göndəriblər. Günahsız həbs edildiyi üçün həyat yoldaşı Zivər xanım Bakının, Tiflisin rəsmi orqanlarına müraciət edir. Hətta Tiflisdə Beriyanın qəbulunda da olur. Lakin bunların bir faydası olmur. Onu bir təsadüf xilas edir. Belə ki, o, Bakıda polis idarəsində işləyərkən ölümdən xilas etdiyi bir nəfər onu bolşeviklərin caynağından qurtarır. Zivər xanımın dediyinə görə, həmin şəxs məşhur çekist Dzerjinskinin silahdaşlarından imiş. Zivər xanım maraqlı bir faktı da söyləyirdi ki, Dzerjinski ilə İbrahim ağa hələ təhsil illərindən bir-birlərini yaxşı tanıyırmışlar. Sonralar İbrahim ağanın sənədlərinin arasında Dzerjinskinin ona bağışladığı yadigar fotoşəkli də tapdıq. Məlum oldu ki, nəyə görə Sovet hökumətinin ilk illərində İbrahim ağaya hörmətlə yanaşırmışlar. Təəssüf ki, təqiblər də onun çekist dostunun ölümündən sonra başlanıb.

Naxçıvana körpə balalarının yanına qayıdan İbrahim ağa ailəsini yoxsulluq içində görüb iş tapmaq üçün Bakıya gedir və qəflətən orada vəfat edir. Onu əmisi oğlu Məhəmməd ağa Şahtaxtinski Çəmbərəkənd qəbiristanlığında üç-dörd nəfərin iştirakı ilə dəfn edir. Bir ildən sonra belə bir kədərli tale məşhur alim Məhəmməd ağanı da haqlayır. Onu Fəxri xiyabanda dəfn etmirlər. Dörd-beş nəfər yaxın qohumu böyük alimi İbrahim ağanın yanında torpağa tap-

şırırlar. Mircəfər Bağırovun qorxusundan heç kim Şahtaxtinskilərə yaxın gələ bilmirdi.

Yanvarın şaxtalı qış günündə həyat yoldaşını itirən Zivər xanım balaları ilə köməksiz, tək-tənha qalır. Şahtaxtına qayıdır ki, balalarını dolandıra bilsin. Amma heyhat! Daşürəkli, neobolşevizm xülyası ilə havalanan muzdur komitəsinin əlaltıları bu köməksiz qadına imkan vermirlər. Gənc ana dəhşətli hadisələrlə üzləşir. Zivər xanım özü bu hadisələri ürəkağrısı ilə söyləyirdi.

Naxçıvan şəhərinə köçən bu qadın çətinliklə də olsa oğlanlarını böyüdür, ali təhsil üçün oxumağa göndərir. Böyük Vətən müharibəsi başlayanda oğlanları Böyükağanı, İsasultanı və Kərim ağanı cəbhəyə aparırlar. Onların hər üçü Bakıda ali məktəbdə təhsil alırdılar. Nə yazıq ki, hər üçü müharibədə həlak olur. Zivər xanım ömrünün sonuna kimi cəbhəyə getmiş üç oğlunu hər gün gözləyirdi. 1980-ci ildə onlarda olarkən mənə qəhrəman gənc əsgərlərə məxsus üç ədəd gümüş fincanları göstərmişdi. İbrahim ağa Varşavada olarkən oğlanlarına hədiyyə almış və üstlərini də yazdırmışdı. Zivər xanım çörəyə möhtac olduğu illərdə də onları gizlədib saxlamışdı. Niyəsə həmin anı - 1980-ci ilin yanvarını xəfif bir kədərlə xatırladım. İbrahim ağa iti ağla sahib ziyalı olmaqla bərabər, həm də səxavətli idi. 1919-cu ildə Naxçıvan şəhərində, Cəfərqulu xanın həyətində kimsəsiz uşaqlar üçün yetimxana açdırıb. Öz müasirlərinin xatırlamalarına görə, olduqca xeyirxah insan olub.

1918-1920-ci illərdə Naxçıvanı daşnaklardan müdafiə edənlərdən biri olan İbrahim ağa sonralar Naxçıvan Muxtar Respublikasının yaradılmasının da fəallarından olub. Onun ulu babaları qədim Naxçıvanın tarixində böyük rol oyna-

mışlar. Bir çox varislər, o cümlədən İbrahim ağa da bu tarixi varisliyi qeyrətlə, hünərlə davam etdirmişdir. Yəqin ki, ziyalılarımızın, elm adamlarımızın Şahtaxtinskilərin fəaliyyəti yolunda aparacağı axtarışlar İbrahim ağanın da fəaliyyətini açmağa kömək edəcəkdir. Bizim də mənəvi borcumuz odur ki, onlardan qalan hər bir tarixi mirası, xatirəni, sənədləri gələcək nəsillərə çatdıraq.

## ŞAHTAXTİNSKİLƏRİN HƏRBİ FƏALİYYƏTLƏRİ NAXÇIVAN TARİXİNDƏ

Qafqaz tarixini araşdırarkən aşkar olur ki, bu regionda baş verən siyasi və iqtisadi proseslərin hamısında Naxçıvan müəyyən dərəcədə iştirak edib. 1828-ci ildən sonra, yəni Naxçıvan xanlığının işğalından üzübəri naxçıvanlılar Rusiya imperiyasının bütün qoşun birləşmələrinə hərbi xidmətə çağırılıblar. Çar ordusunda olan hərbçilərin qısqanclığına baxmayaraq, Naxçıvanın mətin, qorxmaz, cəsur və bacarıqlı gənc döyüşçülərinə onların böyük ehtiyacı olub. Orduya çağırışa müəyyən qadağalar (müsəlmanlar üçün) qoysalar da, çox vaxt qaydanı pozublar. Çünki Qafqaz Avropa və Asiyanı həm hərbi, həm də iqtisadi cəhətdən bir-birinə bağlayan körpüyə bənzəyir desək, heç də səhv etmərik. Qafqazın müsəlman xalqlarına inanmayan çar hökuməti yanıldığını başa düşdü. Müsəlman qafqazlı döyüşçülərdəki hərbi bacarıq fitrətən olduğundan onların döyüş cəbhələrindəki məharəti çar generallarını heyrətə gətirirdi. Belə döyüşləri ilə fəxr edilən qədim oğuz türklərindən biri də Şahtaxtinskilər nəsli idi.

Tariximizdə onların mənşəyi haqqında xeyli maraqlı məlumatlar vardır. Hələ Atabəylər dövləti zamanından bir qədər əvvəlki yüzilliklərdə də qədim Şahtaxtı kəndində məskunlaşıblar. Əksər tarixi sənədlərdə də yazılıb ki, onlar çox-çox qədimlərdən Naxçıvanın sakinləridirlər. Naxçıvan xanlığı zorla Rusiyaya ilhaq edildikdən sonra Şahtaxtinskilər hər bir sahədə olduğu kimi, hərbi işlərdə də öndə gediblər. Şahtaxtinskilər çar Rusiyasının Qafqaz uğrunda apardığı və tarixdə "Qafqaz müharibələri" adı ilə məşhur olan döyüş-

lərin əksəriyyətində iştirak ediblər. Qafqaz müharibələrinin tarixi sənədləri faktlarla, hadisələrlə zəngindir. O dərəcədə zənginlik var ki, bəzən hadisələri təhlil etmək mürəkkəbləşir. Bütün bunlara baxmayaraq, naxçıvanlı döyüşçülərin çərkəzlərdən də məharətlə döyüşən həmyerlilərimizin haqqında yazmaq üçün axtarış aparmaya bilmirsən. Belə döyüşçülərdən biri də Əliqulu ağa Şahtaxtinskidir.

O, qədim Şərur mahalının Şahtaxtı kəndində Qafqazın məşhur zadəganlarından, hərbçilərindən və maarifpərvərlərindən olan Hacı Vəli ağanın ailəsində dünyaya gəlib. Hələlik Naxçıvanda, İrəvanda və Tiflisdə təhsil alması haqqında şifahi məlumatlarımız var. Geniş məlumat üçün ən azı onun formulyar, yəni xidmət kitabçasını tapmalıyıq. Yaxşı haldır ki, Rusiya, eləcə də Gürcüstan arxivlərində hərbçilərin sənədləri hələ də saxlanmaqdadır. Buna görə də axtarışların çox yaxşı nəticələr verəcəyinə ümidimiz var.

Tapdığımız bir arxiv sənədində Əliqulu ağanın müharibədə ağır yaralandığı və ordudan mayor hərbi rütbəsi alması haqqında məlumat vardır. Amma varislərin dediyinə görə, o, polkovnik hərbi rütbəsini də alıb. Bu mümkündür. Çünki Əliqulu ağa Şahtaxtında yaşadığı illərdə ona Naxçıvanda və Yurdçu (indiki Kəngərli rayonunda) kəndində ömürlük miras torpaq sahələri bağışlanılıb. Siyahılarda Yurdçu kəndinin onun ulu babası I İsa Sultana və atası Hacı Vəli ağaya məxsus olması da göstərilib. Elə məqamındaca bir məsələni demək yerinə düşərdi. Xanlıq dövrünün farsdilli sənədlərində Şahtaxtinskilər imzalarının yanında "yurdçulu (yaxud yurdçu)" imzasını da işlədiblər. 1916-cı ildə Heydər ağa Şahtaxtinskinin Naxçıvan məhkəməsinə yazdığı ərizəsində göstərilib ki, mərhum Əliqulu ağa Hacı Vəli ağanın böyük oğlu-

dur. Oğul Heydər ağa atası Heydər ağanın ortancıl, əmisi İbrahim ağanın kiçik oğul olduqlarını da qeyd edib. Bu ərizənin sahibi - həmin vaxtlar Tiflisdə yaşayan, bəzi sənədlərdə "bəy" kimi yazılan Heydər ağa - böyük yazıçı Mirzə Cəlilin ailəsində də yaşayıb. Anası Zeynəbağa xanım (Nazlı xanım) Mirzə Cəlillə ailə qurduğundan, Heydər ağanın bir müddət yazıçının himayəsində, çox vaxt isə dayısı Məmmədqulu bəy Kəngərlinin yanında yaşaması haqqında kitablarda məlumatlar vardır. Amma Heydər ağa bu ərizədə rus dilində öz dəsti-xətti ilə qələmə alıb ki, atasının faciəli ölümündən sonra dünyaya gələn Heydər ağanı 1911-ci illədək babası Hacı Vəli ağa saxlayıb və ona zəngin miras bağışlayıb. Elə ərizə də ona çatan mirasın haqqındadır. Maraqlı haldır ki, Heydər ağa bu ərizədə bir çox faktları açıqlayıb. O, hətta əmisi Əliqulu ağanın vəfat etdiyini, onun həyat yoldaşı Tovuz xanımın kiçikyaşlı uşaqlarla köməksiz qaldığı haqqında da məlumat verib. Yəni o, istəyib ki, Hacı Vəli ağanın torpaq mirası varislər arasında ədalətli bölüşdürülsün. Nazlı xanımla Əliqulu ağanın ailə qurması ilə bağlı məsələni isə əvvəlki yazılarımızda təfsilatı ilə yazmışıq.

Əliqulu ağa Şahtaxtı kəndində yaşadığı illərdə gənc qohumlarına hərbçilik sənətini öyrətməklə, irriqasiya ilə də məşğul olub. Çünki o zamanlar münbit və geniş əkin sahələri olan Kəngərli kəndlərinin suvarma suyuna çox böyük ehtiyacı var idi.

Təəssüflər olsun ki, cəsur hərbiçilərdən olan Əliqulu ağanın hərbi fəaliyyətindən geniş məlumat verə bilmirik. Əliqulu ağa Nazlı xanımla ayrıldıqdan sonra əmisi qızı Tovuz xanımla ailə qurmuşdur. Tovuz xanım Məmmədtağı Sultanın qızıdır, məşhur, dünya şöhrətli alim Məmmədağa Şah-

taxtinskinin bacısıdır. Gələcəkdə qarışıqlıq olmasın deyə, bir mətləbi də açıq yazmağı lazım bildik. Şahtaxtı kəndində bu gün də çoxları onu İbrahim ağanın bacısı bilirlər. Belə deyil, çünki arxiv sənədində onun Məmmədtağı Sultanın qızı, Hacı Vəli ağanın gəlini olması qeydə alınıb. Bir neçə tarixi povestlərdə Tovuz xanımın obrazı yazıçılar tərəfindən qələmə alınıb.

Əliqulu ağa ilə Tovuz xanımın nikahından Məmmədhüseyn ağa, Çingiz ağa, İlyas ağa və İsmayıl ağa adlı övladları dünyaya gəlib.

Onu da qürurla deyək ki, Şahtaxtinskilər nəinki Rusiya ordusunda, hətta Türkiyə ordusunda da böyük şücaətlər göstəriblər. Əliqulu ağanın iki oğlu - Çingiz ağa və İlyas ağa qardaş Türkiyənin istiqlal savaşında döyüşüblər. Məşhur Çanaqqala döyüşünün qaziləridirlər. Bu il Çanaqqala zəfərinin 95-ci ildönümü tamam oldu. Çanaqqala uğrunda gedən döyüşlərdə 253 min türk əsgəri şəhid olmuşdur. Bunlardan isə 3 min əsgər azərbaycanlıdır. Azərbaycan Çanaqqala savaşında 3 min şəhid verib. Əlimizin altında məlumat olmadığından onlardan neçəsinin Naxçıvandan olduğunu deyə bilmirik. Türk yazarı Fəthi Gədiklinin köməkliyi ilə Çingiz ağanın azacıq da olsa, Qazi həyatı haqqında öyrənmiş və sizlərə çatdırmışıq.

Maraq üçün deyək ki, Çanaqqalada döyüşən naxçıvanlıları hətta repressiya ediblər. Bəziləri sürgündən qayıtmışdılar. Amma o döyüş haqqında söhbət açmaq onlara yasaq olsa da, bir vaxtlar biz gənclər onların qəmli - Çanaqqala döyüşləri ilə bağlı türkülərini dinləmişik.

Çingiz ağa da hərbçi olub. Türkiyəli alim İbrahim Atnurun yazdığı bir tarixi fakt Çingiz ağanın 1918-1920-ci

ildə fəaliyyətinin bir anını göstərir: "...Belə qəhrəman zabitin və digər şəxslərin zəhmətləri sayəsində Araz vadisindəki erməni hücumunun qarşısına sədd çəkildi. Dekabr ayı ərzində Aralıq, Zəngibasar bölgələrində, İqdır və Üçmüəzzinin mərkəz qəzalarından başqa məntəqələrdə Şahtaxtılı Çingiz bəy Şura hökuməti yaratdı. Beləcə ucqarlarda yaradılan şuralarla birlikdə Araz vadisində və Arpaçayın qərbindəki bəzi mərkəzlər istisna olmaqla erməni hakimiyyətinin nə qədər zəif olduğu ortaya çıxdı".

1918-1920-ci illərdə Şahtaxtı kəndinin müdafiəsini və orada yaşayan Şahtaxtinskilərin döyüşləri haqda sənədlərin məlumatlarına görə desək, əsl qəhrəmanlıqdır.

İlyas ağa da qardaşı ilə birlikdə Türkiyəyə gedib. Onun da fəaliyyəti bizi maraqlandırır. Axtarışlar, ancaq axtarışlar bizə xəbər verəcək.

Maraqlı bir tarixi fakt üçün haşiyə çıxaq. Arxiv sənədlərindəki məlumata görə, sovet hökuməti qurulduqdan sonra Rusiya Türkiyəyə ilk yardım olaraq 500 kq qızıl göndərib. 8 kəl arabası yüklənmiş karvan Moskva-Bakı-Qarabağ-Zəngəzur-Naxçıvan-Şahtaxtı-Maku-Bəyazid-Ağrı-Ərzurum yolu ilə Türkiyəyə çatdırılıb. Bu karvana kömək edənlərin sırasında hərbçi Şahtaxtinskilər də vardı.

Əliqulu ağanın oğlu Məmmədhüseyn ağa Sankt-Peterburqda Yol Mühəndisləri İnstitutunu bitirib. Qardaşı İsmayıl ağa da Tiflisdə təhsil alıb. 1926-cı ilin əmlak müsadirələrindən sonra Əliqulu ağanın Naxçıvanda yaşayan oğulları təqib olunublar. Onlar Naxçıvandan çıxarılıblar və Qazaxda sığınacaq tapmışlar. Sonralar Məmmədhüseyn ağa Bakıya köçmüş, İsmayıl ağa isə Qazaxda qalmışdır.

Məmmədhüseyn ağa Naxçıvanda yaşayarkən şahbuzlu

Süsən xanımla ailə qurmuşdur. Onların Şəfiqə xanım, Əziz ağa, Rəbiyyə xanım, Tələt ağa və Nazim ağa adlı övladları dünyaya gəlmiş və onlar atalarının 1937-ci ildə həbsindən sonra əziyyətlərə düçar olmuşlar. Bunlardan Əziz ağa Bərdədə yaşamışdır. Əziz ağa orada ömrünün sonuna kimi mühəndislik etmişdir. Onun Məmmədhüseyn, İlyas, Rəşid, Rövşən, Əhməd, Zülfüqar və Azər adlı övladları Şaxtaxtinski soyadını daşıyırlar. Oğlu Rəşid indi də ata yurdunda yaşamaqdadır. Artıq doğma Qarabağda Şahtaxtinskilərin çoxşaxəli bir nəsil qolu yaranmışdır. Onların hamısı Naxçıvanın bugünkü uğurlarından ürəkdolusu danışırlar. Moskvadan, Bakıdan telefon zəngləri ilə ürək duyğularını bildirirlər. Artıq Əziz ağanın varisləri MDU-nun, BDU-nun və digər ali məktəblərin yetişdirmələri və bacarıqlı mütəxəssisləridirlər. Onun oğlu Azər naviqasiya (gəmiçilik) üzrə görkəmli mütəxəssisdir. Bir müddət Finlandiya və Türkiyədə naviqasiyada işləyib. Hazırda Bakıda öz sənəti üzrə fəaliyyət göstərir. Bir məsələni qeyd etməmək insafsızlıq olardı. Əziz ağanın nəvəsi Toğrul Naxçıvanı, ulu babalarının uyuduğu Şahtaxtı kəndini elə məhəbbətlə sevir ki, ali təhsilini də artıq Naxçıvanda tamamlayır.

Qazilər və alimlər anası Tovuz xanım Şahtaxtından heç hara çıxıb getmədi. Nə qədər əzab-əziyyətlər görsə də, ömrünün sonunadək öz qürurunu saxladı. Qohumlarının dediyinə görə, təxminən 1938-ci ildə vəfat edib və Şahtaxtı camaatı onu çox hörmətlə köhnə qəbiristanlıqda (ata-baba sərdabələrinə yaxın) torpağa tapşırıblar.

Tariximizdə və taleyimizdə mühüm izlər qoymuş Şahtaxtinskilərin hərbi fəaliyyətləri də Naxçıvan tarixinin unudulmaz bir səhifəsidir.

## ŞAHTAXTİNSKİLƏR 1918-1920-ci İLLƏRDƏ NAXÇIVANIN MÜDAFİƏSİNDƏ XÜSUSİ HÜNƏR GÖSTƏRİBLƏR

Tarixin bütün zamanlarında Şahtaxtı tutduğu geosiyasi mövqeyə görə həmişə diqqət mərkəzində olub. Ziddiyyətli və çox mürəkkəb zaman olsa da, 1918-1920-ci illərdəki hadisələr, xüsusən Naxçıvanın yağılardan müdafiə olunması tariximizdə taleyüklü, zəfər dolu səhifələrdir. Bu illərdə hər bir naxçıvanlının hünəri təqdirəlayiqdir. Amma burası da var ki, xalqı başına yığa biləcək hərbçilərin, döyüşçülərin, həyatını onların mənsub olduqları sülalələrin keçdikləri tarixi yolları daha dərindən araşdırmaq lazım gəlir. Çünki hər tərəfdən mühasirəyə alınmış Naxçıvanı yağılardan müdafiə etmək, xalqı arxasınca apara bilmək bütün zamanlarda əsl qəhrəmanlıq sayıla bilər. Ona görə də artıq neçə illərdir ki, Naxçıvanskilər, Şahtaxtinskilər, İrəvanskilər və Makinskilər haqqında yazmağı vacib sayırıq.

Naxçıvanskilər və Şahtaxtinskilər-Kəngərlilər, İrəvanskilər-Ziyadoğlu Qacarlar, Makinskilər isə Bayatlardır. Bunlar hamısı qədim oğuz türk tayfalarıdır. Bu türk sülalələri çox qədim zamanlardan Naxçıvanın və İrəvanın sakinləridirlər. Onları dünyanın harasına məcburi surətdə köçürüblərsə də, fürsət tapan kimi döyüşə-döyüşə yenə öz vətənlərinə qayıtmış və doğma Naxçıvanın müdafiəsində qəhrəmanlıq səhifələri yaratmışlar. Bəzən bir-birini əvəz edən hakimiyyət dəyişiklərində torpağı müdafiə edən cəsur, mətin hərbiçilər haqqında iftira yazanlar tapılsa da, yel qayadan heç nə apara bilməyib. Zaman hər bir qaranlıq məsələni vaxtı çatınca aydınlaşdırıb, biz tədqiqatçılara isə qələmə almaq nəsib olub.

Yenə də zəfər dolu doğma tariximizin axtarış yollarındayıq... Bu il may ayının 13-də bir daha tariximiz sevincli bir

günü təqvimə yazdı: Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilərin ev-muzeyi istifadəyə verildi. 2010-cu il fevralın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı tarixi sərəncamı Şahtaxtinskilərə əbədilik, həm də ikinci ömür bağışladı.

26 fevral 2006-cı ildən başlayaraq dövlətimizin qayğısı ilə bu nəslə mənsub olan görkəmli ictimai xadim, publisist və maarifçi Məhəmməd ağa Şahtaxtinskinin elmi irsi çap olunmaqdadır.

Zəfər və faciə dolu yolları olan Şahtaxtinskilər haqqında axtarışlarımızı dərinləşdirdikcə tariximiz daha da zənginləşir. Dövlətimizin tariximizə və onun öyrənilməyən səhifələrinin araşdırılmasına göstərdiyi böyük qayğını bir daha mayın 13-də ürəkdolusu sevinclə yaşadıq.

Belə bir sevincin aurasında mətləbimizi yazmaq üçün tariximizin qəhrəmanlıq dolu səhifələrindən birini vərəqləyək. Birinci Dünya müharibəsi başlayanda Naxçıvanda Şahtaxtının və Culfanın mövqeyi əvəzsiz idi. Çünki Yaxın Şərqi və Orta Şərqi birləşdirən körpülər, rahat keçidlər burada yerləşirdi. Bundan savayı Qafqazı bu Şərq ölkələri ilə birləşdirən ən kəsə, etibarlı hərbi yollar Naxçıvandakı Şahtaxtı və Culfa körpülərindən istiqamətlənirdi. Şahtaxtının həm də tarixi mövqeyi vardı. Onun sinəsində dünyaya göz açan Şahtaxtinskilər həm Qərb və həm də Şərq ölkələrində bu tarixi mövqeyi uca zirvələrə qaldıra bilmişdilər. Ən maraqlısı isə onlar bu tarixi mövqeyi bir neçə sahələrdə qoruyub saxlaya bilmişlər.

1914-1917-ci illərdə Şahtaxtinskilərin Rusiyanın və Qərbi Avropanın ən məşhur elm ocaqlarında təhsil alan gənc övladları yeni bir demokratik ruhla doğma yurdlarına tətilə gəlir və buradakı siyasi hadisələrin əsl iştirakçısına çevrilirdilər. Onu da deyək ki, onlarda bu azadlıq duyğusu ulu əcdadlarından gəlirdi. Bu işdə onlara nümunə ola biləcək

məşhur qohumları Məhəmməd ağa və onun əmisi Nəcəfqulu ağanın oğlu II İsa Sultan mənəvi ataları idilər. II İsa Sultan 1894-cü ildə Qarsda vəfat edib, Tiflisdə dəfn olunmuşdusa da, əməlləri doğma kəndi Şahtaxtında davam edirdi.

II İsa Sultanın əmisi Məhəmmədtağı Sultanın oğlu Baxşəli ağa 1859-cu ildə Qafqazın mötəbər, zəngin şəxslərindən və məşhur hərbiçilərindən olan Məhəmmədtağı Sultanın ailəsində, Şahtaxtı kəndində doğulub. Hələlikdə öyrəndiyimiz dəqiq məlumatlar budur ki, o, 1898-ci ildə sosial-demokrat partiyasının üzvü olub. Həştərxanda və Culfada gömrükxana məmuru vəzifəsində çalışmışdı. 1908-ci ildə çar hökuməti onu həbs etmiş və işdən çıxartmışdı. 1914-cü ildə İrəvan şəhərində Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri seçilmişdi. Öyrəndiyimiz arxiv sənədlərindən görünür ki, Baxşəli ağa 1917-1918-ci illərdə yenə də Culfa gömrükxanasında işləyirmiş. Culfada işləməsinə baxmayaraq, onun Şahtaxtı kəndində və İrəvan şəhərində mülkləri var idi.

Tarixi mənbələrə görə, Baxşəli ağa əmisi Hacı Vəli ağanın qızı ilə ailə qurub. Onun həyat yoldaşının Sona xanım olduğunu təsdiqləyənlər də var. Çünki bir çox sənədlərdə Sona xanımın adı tez-tez çəkilir. İrəvanda və Naxçıvanda yaşaması haqqında məlumatlar vardır. Onların nikahından Nemətulla ağa (1885-1954), Əsədulla ağa (1885-1939), Məmmədtağı Sultan (1892-1918), Həbibulla ağa (1900-1986), Ətaulla ağa (1901, yaxud 1904-1974), Hüseyn ağa (1893-1918) adlı oğlanları, Məhcəbin və Məhluqə adlı qızları olmuşdur.

Nemətulla ağa Peterburq Ali Politexnik məktəbində Skryabinlə (Molotovla) 1916-cı ildə bir yerdə oxumuşlar. 1917-ci ildə Naxçıvana gəlmiş və Naxçıvanın ermənilərdən müdafiə olunmasında yaxından iştirak etmişdir. O, sovet hökuməti illərində Azərbaycan Sənaye İnstitutunda metalların texnologiyası kafedrasının müdiri olmuşdur. Qeyd

edək ki, bu sahə üzrə Azər-baycanda ilk mütəxəssis olub.

Əsədulla ağa 1885-ci ildə Şahtaxtı kəndində doğulub. Kiyev Tibb İnstitutunu bitirib. Uzun illər Gəncədə işləmişdir. O, həm də folklorçu və tərcüməçi olmuşdur.

Məmmədtağı Sultan 1892-ci ildə doğulub. Tiflisdə və Rusiyanın hərbi məktəblərində təhsil alıb. Tiflisdə oxuyarkən çex qızı Olqa Stefanovna Bosiko (Kuzmina) ilə ailə qurmuş və Gülnaz adlı qızları olmuşdur. Naxçıvanın daşnaklardan müdafiə olunmasında fəal iştirak edən Məmmədtağı Sultanı quldurlar ataları Baxşəli ağanın gözləri önündə amansızcasına Dərəlikdə (Culfa) öldürmüşlər.

Hüseyn ağa 1893-cü ildə Şahtaxtı kəndində dünyaya gəlmiş, İrəvan gimnaziyasında, sonralar isə Sankt-Peterburqda oxumuşdur. Hüquqşünas kimi Naxçıvana dönən Hüseyn ağa da digər Şahtaxtinskilərlə birlikdə Naxçıvanın müdafiəsində cəsurluqla döyüşənlərdən biri olmuşdur. O, sosial-demokrat olmuş və dostu Hüseyn Mamayevin yazdığına görə, 1915-ci ildə Moskva universitetində oxumuşdur. Sənədlərin dili ilə desək, 1917-ci ildə Peterburqdan İrəvana dönmüş və burada "Gecə kursları"nda dərs demişdir. Onu sovet hakimiyyəti illərində bolşevik kimi təqdim etsələr də, bu, doğru deyil. Çünki o, müstəqilliyin əsl təbliğatçılarından biri olmuşdur. Hüseyn ağa İrəvanda, Şahtaxtıda xalqa izah edirdi ki, oktyabristlərin və kadetlərin qurduqları Tuçkovlar və Milyukovlar hökumətinə inanmayın. Sözlərində səmimi olsalar da, onlar müharibə hökuməti qurmuşlar. Müharibə hökuməti isə xalqa sülh və çörək, həmçinin azadlıq verə bilməz. Bu hökumət "Polesyeni, Türkiyəni talan etmək, İstanbulu ələ keçirmək, Polşanı, Hollandiyanı, Litva ölkəsini və başqa ölkələri işğal etmək istəyən soyğunçuluq hökumətidir"-deyən Hüseyn ağanı hər yerdə çar tərəfdarları və xəfiyyələri təqib edirdilər. O, Şahtaxtı kəndinin mərkəzində təşkil etdiyi yığıncaqlarda öz çıxışlarında belə şüarları tez-

tez səsləndirirdi: "Yox olsun müharibə! Yaşasın sülh!".

O da digər qardaşları kimi əyninə əsgər paltarı geyinərək erməni daşnakları ilə döyüşürdü. Tarixi sənədlərə görə, "Müdafiye-məzluman təşkilatı"nı yaratmışdı. Onu da atası və qardaşı ilə birlikdə Dərəlikdə amansızlıqla qətlə yetiriblər. Qeyd etmək yerinə düşər. 1919-cu ildə Bakıda nəşr edilən "Zəhmət" qəzeti (oktyabr) böyük ürək ağrısı ilə onların faciəli qətlə yetirilməsi ilə bağlı yazı dərc edib. Hüseyn ağanın tələbəlik dostu M.Ə.Nasir adlı bir nəfər sonralar onun haqqında 1967-ci ildə "Şərq qapısı" qəzetində kiçik bir xatirə dərc etdirib.

Bir sıra tədqiqatçılar Baxşəli ağanın Culfanın Yaycı kəndində, oğlanlarının isə Ərəzində dəfn olunmasını yazmışlar. Amma axtarışlar göstərdi ki, bu həqiqət deyil. Buna aydınlıq gətirmək istərdik. Bu hadisə haqqında müxtəlif versiyalar bəzi kitablarda yazılıb. Axtarışlar aparıb əsl həqiqəti demək daha düzgün olardı. Culfadan Naxçıvana faytonla qayıdan atanın və üç oğulun qarşısını muzdlu, xüsusi hazırlanmış quldurlar kəsərək, Dərəlikdə, Darbənd deyilən bir yerdə qətlə yetiriblər. Onların ailəvi dostları Qurbanəli Şərifzadənin oğlu Əziz Şərif bu amansız faciə haqqında ilk dəfə yazıb. Amma o da onların dəfn olunduqları yer haqqında heç nə yazmayıb. Bu məsələdə Kamil ağa Şahtaxtinski bizə köməklik elədi. Onun anasının dediyinə görə, iki oğulu və atanı birlikdə Culfanın Camaldın kəndində torpağa tapşırıblar. Hətta sonralar onun nəvəsi məşhur rəssam Elmira xanım Şahtaxtinskaya da oraya gəlibmiş.

Bunları öyrənəndən sonra Camaldın kəndinə gedib bu əhvalatı ata-babalarından eşidən 76 yaşlı Tarqulu müəllimi axtarıb tapdıq. Onun söhbətindən məlum oldu ki, ana babası Əhməd Xudaverdi oğlu əhvalatı bilən kimi öküz arabasında ata və oğulları kəndə gətirib və köhnə qəbiristanlıqda dəfn ediblər. Kəndin ağsaqqalları bu qətlə yetirilənlərin çox

məşhur və zəngin olduqlarını bilirmişlər. Tarqulu müəllimin dediyinə görə, faytonda olan 13-14 yaşında uşaqlardan biri Nehrəm tərəfə, dağlara qaçdığından onu öldürə bilmirlər. Kamil ağanın dediyinə görə bu, Baxşəli ağanın oğlu Əsədulla, yaxud Nemətulla ağa olub. Onlar əkizdirlər.

1990-cı ilə qədər məzarlar dururmuş. Sonralar üstü uçub dağılıb. Mənim xahişimlə kəndin ağsaqqalları köhnə qəbiristanlıqda məzarların yerlərini tapdılar. Həyatını xalqına həsr edən Şahtaxtinskilərə insanlar o qədər ehtiram göstərirlər ki, onların uyuduğu məzarların yerlərini də axtarıb tapırlar. Bu tariximizə böyük sevgi və ehtiramdır. Hər bir kənddə, eldə-obada Naxçıvanın müdafiəsi üçün döyüşənlərin xatirəsi əziz tutulur və sevgi ilə anılır.







*Məmmədtağı Sultan Şahtaxtinski*
*(M.Şahtaxtinskinin atası)*




*Baxşəli ağa həyat yoldaşı*
*Sona xanım və uşaqları*



*Soldan İbrahim ağa Şahtaxtinski*



*Solda Məmmədtağı sultan Baxşəliağa oğlu*



*Gülnaz xanım Məmmədtağısultan qızı*



*Tovuz xanım gəlini Süsən və nəvələri ilə birlikdə*



*İsa Sultan Şahtaxtinski (sağda) qardaşları Əli ağa və Əbülfət ağa ilə birlikdə*



*Əbülfət ağa Şahtaxtinski*



*Hüseyn ağa Baxsəli ağa oğlu Şahtaxtinski (ikinci cərgədə sağdan ikinci)*



*İlyas ağa Şahtaxtinski*



*Məmməd bəy Sahtaxtinski*



*Hüseyn ağa Baxşəli ağa oğlu Şahtaxtinski (ikinci cərgədə sağdan ikinci)*



*Sağdan Həbibulla və Ətaulla ağa Şahtaxtinskilər*
*(Baxşəli ağanın uşaqları)*



*Baxşəli ağa Şahtaxtinski*



*Əliqulu ağa Şahtaxtinski*



*Məhəmməd ağa Şahtaxtinskinin bacısı Pəricahan xanımın qızları*



*Məhəmməd ağa Şahtaxtinski*



*Həmid ağa Şahtaxtinski*



*Həbibulla ağa Şahtaxtinski*



*Behbud ağa Şahtaxtinski*



*Zəhra xanım Şahtaxtinskaya*



*Elmira Şahtaxtinskaya*



*Cahangir ağa Şahtaxtinski*



*İsa Sultan Şahtaxtinski*



*Leyla xanım Şahtaxtinskaya*



*Adilə Şahtaxtinskaya*



*Toğrul Şahtaxtinski*



*Məhəmmədemin Şhtaxtinski*



*Səidə Şahtaxtinskaya*



*Aleksis (Ələsgər ağa) Şahtaxtinski*



*Nəzirə xanım Şahtaxtinskaya*



*Əsədulla ağa Şahtaxtinski*



*İsmayil ağa Şahtaxtinski*




***Çingiz Əliqulu ağa oğlu Şahtaxtinskinin İstanbuldakı məzar daşı***



*Əziz ağa Şahtaxtinski ailəsi ilə birlikdə*



***Diplomat Aleksis Şahtaxtinski və akademik İsa Həbibbəyli. Naxçıvan şəhəri.***



*Aleksis Şahtaxtinski Bakıda qohumları arasında*

## MÜNDƏRİCAT

Şahtaxtinskilər muzeyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ........................................ 3
Şahtaxtinskilər: Naxçıvanın məşhur soylarından biri........ 5
Tariximizdə Şahtaxtinskilər nəsli - öyrənilməsi və tədqiq olunası mövzular hələ çoxdur........................................ 7
Tariximizdə və taleyimizdə Şahtaxtinskilər........................ 13
Elimizin böyük oğlu: Əbülfət ağa Şahtaxtinski. O, dövrünün tanınmış ziyalısı və yazıçısı olmaqla bərabər, həm də çar ordusunun yüksək rütbəli zabiti olub ............ 20
Görkəmli dövlət xadimi Behbud ağa Şahtaxtinskinin nəsil şəcərəsi və onun Qərbi Avropada yaşayan qohumları........................................................ 24
Türkiyənin istiqlal savaşında iştirak edən qazi Naxçıvanlı Çingiz Yurtçu Şahtaxtinski kimdir? .............. 30
Görkəmli dövlət xadimi Həmid ağa Şahtaxtinskinin nəsil şəcərəsi ........................................................ 34
İsa Sultan Şahtaxtinski və onun varisləri......................... 38
Aleksis Şahtaxtinski: "Onlardan biri olduğum üçün fəxr edirəm" ........................................................ 44
Polkovnik Əbülfət Ağanın keçdiyi hərbi yol gəncliyimizə nümunədir ................................................ 47
Elm korifeyləri - Şahtaxtinskilər ........................................ 51

İbrahim ağa Şahtaxtinski .................................................. 56
Şahtaxtinskilərin hərbi fəaliyyətləri
Naxçıvan tarixində .......................................................... 64
Şahtaxtinskilər 1918-1920-ci illərdə Naxçıvanın
müdafiəsində xüsusi hünər göstəriblər ............................. 70

**Musa Quliyev**
*Şahtaxtinskilər*
*tariximizdə və taleyimizdə*

***Nəşriyyat redaktoru:***
*Muxtar Qasımzadə*

***Korrektoru:***
*Fariz Yunisli*

***Kompyuter tərtibatı:***
Ziya Məmmədov

Yığılmağa verilmiş 14.07.2010.
Çapa imzalanmış 30.07.2010.
Formatı 60X90 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 6,5 ç.v.
Sifariş № 573. Tiraj 200 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.